**DİQQƏT!**

**SƏS QƏZETİNDƏN NOVBƏTİ YENİLİK!**

Səs qəzeti artiq Azərbaycanda ilk dəfə olaraq Video qəzet formatında nəşrə başladı.

Video xəbəri izləmək üçün telefonunuzun kamera bolməsinə daxil olub QR kodunu telefonunuza oxuduraq ekrana gələn linkə daxil olun.

**QEYD:** Android telefonlar üçün QR Code Reader skine proqramını telefonunuza yükləyərək videolara daxil ola bilərsiniz.



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 149 (6113) 29 avqust 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

# İlham Əliyev: "Qanun qarşısında hamı bərabərdir, heç kim toxunulmaz deyil"



Bax 2

## Gürcüstan Prezidenti Birinci vitse-prezident Mehriban Əliyevaya təbrik məktubu göndərib



Gürcüstanın Prezidenti Salome Zurabişvili Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevaya təbrik məktubu ünvanlayıb. Məktubda deyilir: "Zati-aliləri, əziz Mehriban, Sizi doğum gününüz münasibətilə Gürcüstan xalqı adından və şəxsən öz adımdan təbrik etməkdən məmnunluq hissi duyuram. Ölkələrimizi yaxınlaşdırmaq...

Bax 3

## Prezidentin köməkçisi Hikmət Hacıyev beynəlxalq əməkdaşlıq sahəsində fəaliyyət göstərən QHT-lərlə görüşüb



*Avqustun 28-də Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev beynəlxalq əməkdaşlıq sahəsində fəaliyyət göstərən 25 QHT-nin sədri ilə görüş keçirib. Bu barədəAZƏRTAC-a Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının İctimaiyyətlə əlaqələr bölməsindən məlumat verilib...*

Bax 5

## Dollar niyə ucuzlaşmağa başlayıb?



Aktivlərin idarə edilməsi üzrə dünyada ən iri şirkətlərdən biri olan "Pacific Investment Management Co"ya (Pimco) görə, dolların inkişaf edən ölkələrin valyutaları qarşısında zəifləməsi üçün yer olduğundan eniş həlә...

Bax 16



## Ermənistanın "yeni milli təhlükəsizlik strategiyası": qeyri-ciddi bir sənədin əsassız tezisləri



Rəsmi İrəvan növbəti təxribatçı addımını atdı. Bu dəfə "strateji" adlandırdığı kağız parçası ilə dünyanı aldatmaq işinə girişdi. Milli təhlükəsizliklə bağlı sənədlərdə...

Bax 14

## Ermənistanı yalnız məğlubiyyət gözləyir!

Bax 12

*Avqustun 23-də cəbhənin Goranboy rayonu istiqamətində baş verən hadisə bir daha Ermənistanın işğal və terror siyasəti yürütməsini təsdiqlədi. Hərbçilərimizin sayıqlığı, fədakarlığı və peşəkarlığı ilə düşmənin diversiya-kəşfiyyat qrupunun təxribat törətmək cəhdinin qarşısı...*



**Rasim Quliyev: "Rusiya Azərbaycanın qiymətini getdikcə anlamağa başlayır"**



**Sahibkarlıq subyektləri üçün elektron xidmətlər**

## Sevinc Osmanqızı müxalifətdaxili qaşıdurmanı gərginləşdirir



Bax 14

## "Təxribatlar göstərir ki, ermənilər mənfur niyyətlərindən əl çəkmirlər"



Bax 11

## Kloppdan Messi açıqlaması: "Onu burada görmək istəyərəm"



Bax 16

# İlham Əliyev: "Qanun qarşısında hamı bərabərdir, heç kim toxunulmaz deyil"



***Bəli, Azərbaycan hüquqi dövlətdir, ölkəmizdə qanunun aliliyi təmin edilib, heç kim qanundan üstün ola bilməz. Hamı qanun qarşısında bərabərdir, öz hərəkətlərinə görə məsuliyyət daşıyır və heç kimə qanunun tələblərindən yan keçmək imtiyazı vermir. Azərbaycan Prezidenti dəfələrlə öz çıxışlarında qanunun tələblərinə hər kəsin əməl etməsinin zəruriliyini vurğulayıb: "Qanun qarşısında bərabərlik dövlətdə davamlı sabitliyin, cəmiyyətin bütün təbəqələrindən olan vətəndaşların maraq və mənafelərini müdafiə etməyə qadir mükəmməl idarəçilik mexanizminin yaradılmasının fundamental prinsiplərindən biridir.***

Bu gün Azərbaycan dövləti elə bir inkişaf səviyyəsinə çatıb ki, qanundan yan keçmək, gizlənmək, digər vətəndaşlarla müqayisədə daha böyük üstünlüklər əldə etmək mümkün deyil. Çünki qanunlar və onların icrasına məsul dövlət qurumlarının kifayət qədər dəqiq, operativ işləyən nəzarət mexanizmləri var. Üstəlik ictimai nəzarətin də bu məsələdə rolu zaman keçdikcə artır. Ona görə də hər birimiz atdığımız addımları daha dərindən ölçüb-biçməli, dövlətimizin qanunlarına hörmət nümayiş etdirməliyik".

Göründüyü kimi, qanunları pozan hər kəsi qanun cəzalandırır. Yəni hansısa vəzifəli şəxsin yol verdiyi pozuntulara onun sosial statusuna görə qiymət verilməməlidir. Hər bir kəs qanun qarşısında eyni qaydada məsuliyyət daşıyır. Çünki hüququn başlıca prinsipi ədalətdir, hüquq insanlara deyil, konkret əməllərə qiymət verir.

### Karantin rejimi və yenə məmur özbaşınalığı

Bu baxımdan da bütün dünyanı ağuşuna alan koronavirus pandemiyası ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyevin göstərişi ilə Nazirlər Kabinetinin pandemiya ilə mübarizə məqsədilə təsdiqlədiyi Tədbirlər Planının icrasına uğurla həyata keçirilir. Bu gün məhz bu uğurlu və düşünülmüş addımların nəticəsində görülən bütün lazımi qabaqlayıcı tədbirlər, tətbiq olunan qadağalar öz müsbət nəticəsini verərək, başqa ölkələrdən fərqli olaraq xalqımız bu vəziyyətdən az itkilərlə çıxır və ölkəmizdə koronavirus xəstəliyi nəzarət altındadır. Əhalinin sağlamlığının qorunması və təhlükəsizliyinin təmin edilməsi məqsədilə bir çox məhdudiyyətləri nəzərdə tutan xüsusi karantin rejimi tətbiq olunub. Nazirlər Kabineti yanında Operativ Qərargah yoluxma və sağalma hallarında müsbət dinamikanı nəzərə alaraq avqustun 10-dan yumşaldıcı tədbirlərin tətbiq edilməsi barədə qərar qəbul edib. Koronavirusla mübarizəyə ciddi təhdid yaratdığına görə kütləvi tədbirlərin, o cümlədən toy və yas mərasimlərinin keçirilməsinə qadağa qüvvədə saxlanılıb.

Bu günə kimi daxili işlər orqanları xüsusi karantin rejiminin tələblərini pozaraq əyləncə təşkil edən, toy, yas və s. mərasimləri keçirən çoxlu sayda şəxsi məsuliyyətə cəlb edib. Bu günlərdə bəzi vəzifəli şəxslərin, məmurların müxtəlif toy mərasimləri təşkil etməsinə dair məlumatlar cəmiyyətin ciddi hiddətinə səbəb olub və qınağına məruz qalıb.

Qeyd etmək lazımdır ki, Azərbaycan Prezidenti ölkədə qanunun aliliyinin qarantıdır, hər kəsin qanun qarşısında məsuliyyəti və cavabdehliyi ali iradənin tələbidir. Heç bir vəzifəli şəxs öz statusundan istifadə edərək qanunları poza və qanunun tələblərinə hörmətsiz yanaşa bilməz. Prezident İlham Əliyev dəfələrlə vurğulayıb ki, heç kim qanundan üstün deyil. Azərbaycan hüquqi-demokratik dövlətdir və qanun qarşısında hamı bərabərdir.

### Karantin rejimi və yenə məmur özbaşınalığı

Azərbaycan hüquqi dövlətdir, ölkəmizdə qanunun aliliyi təmin edilib, hər kəs qanun qarşısında bərabərdir və öz hərəkətlərinə görə məsuliyyət daşıyır. Bu günə kimi Daxili İşlər orqanları xüsusi karantin rejiminin tələblərini pozaraq, müxtəlif əyləncə məclisləri təşkil edən, toy və yas mərasimləri keçirən çox sayda şəxsi məsuliyyətə cəlb edib.

Cərimələnən məsuliyyətsiz vətəndaşlarımızın sayı yüzlərlədir. O şəxslər öz məsuliyyətsiz davranışları ilə yalnız özlərinin və ailə üzvlərinin deyil, həm də bütün cəmiyyətin sağlamlığı üçün təhlükə yaradırlar. Son günlər bəzi vəzifəli şəxslərin, məmurların toy mərasimləri və onlarla insanın yığışdığı müxtəlif ziyafətlər təşkil etməsinə dair sosial şəbəkələrdə yayılan məlumatlar, fotolar, videogörüntülər cəmiyyətdə əsaslı narahatlıq doğurub .

Bu hərəkətlər siravi vətəndaşın düşüncəsində məmur özbaşınalığı və harınlığı kimi qavranılsa da, məsələyə dərindən baxdıqda, belə hərəkətlərin dövlətin qanunlarına hörmətsizlik olduğu qənaəti yaranır. Kimliyindən və tutduğu vəzifədən asılı olmayaraq, hər kəs törətdiyi əməllərin cəzasının qanun çərçivəsində alacaq!

Xüsusilə də insanların daha çox toplaşa biləcəyi beynəlxalq və yerli tədbirlərin, idman yarışlarının, dini mərasimlərin, toy və hüzr məclislərinin keçirilməsi qadağan edilmişdir. Dövlətin tətbiq etdiyi ciddi karantin rejimi ilə yanaşı həm ölkə Prezidenti cənab İlham Əliyev həm də birinci vitse-prezident xanım Mehriban Əliyeva xalqımıza müraciət edərək qaydalara əməl etməyi, infeksiyadan qorunmaq üçün bütün mümkün vasitələrdən istifadə etməyi tövsiyyə etmişdirlər. Bu baxımdan, hər bir vətəndaşın, xüsusilə də məmurların vəzifəsi karantin rejiminə riayət etməlidirlər. Və həmin adamlar bir daha bilməlidirlər ki, Azərbaycan hüquqi dövlətdir, ölkəmizdə qanunun aliliyi təmin edilib, heç kim qanundan üstün ola bilməz. Hamı qanun qarşısında bərabərdir və öz hərəkətlərinə görə məsuliyyət daşıyır. Çünki qanun şahdır, şah qanun deyil. Heç bir şəxs öz mövqeyindən, statusundan istifadə edərək qanunları poza və qanunun tələblərini poza bilməz və bütün atılan addımlar Azərbaycan insanı, onun sağlamlığı və təhlükəsizliyi üçündür!

Beləliklə, hər bir şəxs mövcud reallığı, qanunun aliliyini, Azərbaycan Prezidentinin mövqeyini və ali iradəsini bilməli və başa düşməlidir ki, qanun pozuntusuna görə mütləq şəkildə cavab verməli olacaq.

***RƏFİQƏ HÜSEYNOVA***

# Gürcüstan Prezidenti Birinci vitse-prezident Mehriban Əliyevaya təbrik məktubu göndərib



***Gürcüstanın Prezidenti Salome Zurabişvili Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevaya təbrik məktubu ünvanlayıb. Məktubda deyilir: "Zati-aliləri, əziz Mehriban, Sizi doğum gününüz münasibətilə Gürcüstan xalqı adından və şəxsən öz adımdan təbrik etməkdən məmnunluq hissi duyuram. Ölkələrimizi yaxınlaşdırmaq istiqamətində uzun illər boyu gördüyünüz işləri bu gün bir daha xatırlamaq üçün yaxşı fürsətdir.***

Keçən il mənim Azərbaycana səfərim zamanı görüşümüz gələcək illərdə əməkdaşlığımıza qapılar açdı. Azərbaycan və Gürcüstan qədim dostluq, əsrlər boyu ümumi mübarizə və ortaq maraqlarla bir-birinə bağlı olan qonşu ölkələrdir. Bizim tərəfdaşlığımız dürüstlüyə əsaslanır.

Doğum gününüzün COVID-19 pandemiyasının hələ də dünyada tüğyan etdiyi bir vaxta təsadüf etməsindən dərin təəssüf hissi keçirirəm. Lakin Prezident İlham Əliyevlə bu ilin aprel ayında müzakirə etdiyimiz kimi, dünya ictimaiyyəti məhz həmrəylik və beynəlxalq əməkdaşlıq sayəsində bu virusa qalib gələcək.

Fürsətdən istifadə edərək, Azərbaycanda bu gözəgörünməz düşmənin həyatına son qoyduğu insanların doğmalarına bir daha dərin hüznlə başsağlığı verirəm. İnanıram ki, dünya mövcud böhrandan beynəlxalq həmrəylik, sıx birlik sayəsində çıxacaq və əvvəlkindən daha güclü olacaq. Pandemiya bitdikdən sonra Sizinlə Gürcüstanda görüşməyi səbirsizliklə gözləyirəm. Xanım Birinci vitse-prezident, icazə verin doğum gününüz münasibətilə Sizə və ailənizə cansağlığı, tükənməz enerji və rifah arzularımı çatdırım".

# Avropa Xəbər Agentliyi Mehriban Əliyeva haqqında məqalə yayıb




***Almaniyada fəaliyyət göstərən Avropa Xəbər Agentliyi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva haqqında məqalə yayıb. Məqalədə Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətindən, xeyirxah əməllərindən, sivilizasiyalararası dialoqa töhfələrindən, Azərbaycanın dünyada tanıdılması istiqamətində gördüyü işlərdən bəhs edilir.***

AZƏRTAC-ın "Vətəninə və xalqına xidmət Birinci vitse-prezident Mehriban Əliyevanın həyat amalıdır" sərlövhəli məqaləsi əsasında hazırlanan yazıda xüsusilə oxucuların diqqəti Mehriban Əliyevanın UNESCO-nun və ICESCO-nun xoşməramlı səfiri kimi dünya mədəni irsinin qorunması, mədəniyyətlərarası dialoqun, multikultural dəyərlərin təşviqi işinə verdiyi töhfələrə cəlb olunur. Vurğulanır ki, Birinci vitse-prezidentin fəaliyyəti təkcə öz ölkəsinin maddi və mənəvi mədəni irsinin təbliğinə deyil, eyni zamanda, dünyada sülh, sabitlik, sivilizasiyalararası dialoq, multikulturalizm kimi bəşəri ideyaların reallaşdırılmasına, bu sahələrdə səylərin birləşdirilməsinə yönəlib.

Məqalədə avropalı oxuculara Mehriban Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsində gördüyü işlər də diqqətə çatdırılır. Bildirilir ki, onun fəaliyyətində əhalinin həssas təbəqələrinin, o cümlədən məcburi köçkünlərin problemlərinin həlli xüsusi yer tutur. O, Birinci vitse-prezident kimi ilk müşavirəsini qaçqın və məcburi köçkün ailələrinə həsr edib. Bundan başqa, Mehriban Əliyeva Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə yaralanan hərbçilərə qayğı göstərir, onun təşəbbüsü ilə ölkədə təhsil, səhiyyə, mədəniyyət, idman sahələrində irimiqyaslı layihələr icra edilir.

# Mərakeş mətbuatı: Ermənistan işğal etdiyi torpaqlarda mədəniyyət abidələrini məhv etmək siyasəti yürüdür

Mərakeşin həftəlik "Əl-İslah və Əl-Tənmiyə" qəzeti Azərbaycanın bu ölkədəki səfiri Oktay Qurbanovun müəllifi olduğu "İşğal olunmuş İslam irsi" sərlövhəli məqaləsini dərc edib.

AZƏRTAC xəbər verir ki, məqalədə təxminən son 30 ildə Ermənistanın Azərbaycanın işğal altındakı torpaqlarında İslam dininə aid maddi və mədəniyyət abidələrini məhv və talan etmək siyasəti yürütdüyü bildirilir, qeyd edilir ki, bu vəhşi hərəkətlər və vandalizm aktları təkcə Azərbaycana qarşı deyil, həm də bütün bəşər sivilizasiyasına qarşı törədilən cinayətdir. Bu acı həqiqətlər dolayısı ilə erməni rəsmiləri tərəfindən dəfələrlə bəyan edilsə də, işğalçı dövlətin hakim dairələri onları ört-basdır etməyə çalışır və beynəlxalq məsuliyyətdən həyasızcasına yayınır.




Səfir diqqətə çatdırır ki, Azərbaycanın tarixi abidələrinə qarşı ermənilərin vandalizmi işğal olunmuş bütün ərazilərdə özünü göstərir. Bu torpaqlarda yüzlərlə tarixi və dini abidə işğalçılar tərəfindən talan edilərək uçurulub. Azərbaycan xalqının mədəni irsi bəşər mədəniyyətinin ayrılmaz bir hissəsi olduğu üçün ölkəmizin ərazisindəki tarixi və mədəniyyət abidələrinin qorunması beynəlxalq məsuliyyətdir. Bu torpaqlardakı erməni təcavüzkarların cinayətkarlıqları, dini, tarixi və mədəni irsimizin qəsdən məhv edilməsi Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması üzrə Haaqa Konvensiyasının (1954), Arxeoloji irsin qorunması üzrə Avropa Konvensiyasının (1992), həmçinin Mədəni və təbii irsin qorunması üzrə UNESCO Konvensiyasının (1972) prinsiplərinə ziddir.

Oktay Qurbanov qeyd edir ki, istər Ermənistan daxilində, istərsə Azərbaycanın işğal edilmiş tarixi torpaqlarında, o cümlədən Dağlıq Qarabağda və onun ətrafındakı torpaqlarda xalqımızın dini və mədəniyyət abidələrinin erməni vandalları tərəfindən dağıdılması və sökülməsi məsələsi ətraflı şəkildə araşdırılıb. Azərbaycanlı mütəxəssislər ölkəmizin işğal altındakı torpaqlarında tarix və mədəniyyət memarlıq abidələrinin, o cümlədən Ermənistandakı tarixi abidələrimizin sayını müəyyənləşdiriblər. Bakıdakı Tarix və Mədəniyyət Abidələrini Müdafiə Təşkilatı Azərbaycanın işğal olunmuş torpaqlarında 4500 dini və mədəniyyət nümunələrinin 2550-nin fotolarını, coğrafi mövqeyini və digər vacib məlumatlarını dərc edib.

Yazıda bildirilir ki, işğal olunmuş ərazilərdəki dini və mədəniyyət abidələrini sökmək və talan etmək erməni vandalizminin və vəhşiliyinin daha bir təzahürüdür. Ermənistan beynəlxalq təşkilatların üzvü olan bir dövlət kimi işğal olunmuş ərazilərdə Azərbaycanın dini və mədəni irsinə qarşı törədilmiş vandalizm aktlarına görə cavabdehdir.

Müəllif Azərbaycan Prezidenti İlham Əliyevin Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşündəki çıxışından sitat da gətirib: "Azərbaycanın işğal olunmuş ərazilərində bütün tarixi abidələr, məscidlər, məzarlıqlar Ermənistan tərəfindən dağıdılmış, muzeylər və maddi-mənəvi sərvətlərimiz talan edilmişdir. Ermənistan məqsədli surətdə işğal olunmuş ərazilərdə Azərbaycan izini itirməyə çalışaraq bütün toponimləri erməniləşdirir. Ermənistan, həmçinin işğal olunmuş ərazilərdə beynəlxalq humanitar hüquqa zidd olaraq qeyri-qanuni məskunlaşdırma siyasəti aparır və qanunsuz iqtisadi fəaliyyətlə məşğul olur".

# Azərbaycan ilə Küveyt arasında əməkdaşlığın daha da genişləndirilməsinə dair fikir mübadiləsi aparılıb



Xarici İşlər naziri Ceyhun Bayramov avqustun 28-də Küveyt Dövlətinin Azərbaycan Respublikasındakı səfiri Səud Əbdüləziz Əlrumi ilə görüşüb. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə nazir Ceyhun Bayramov Azərbaycan ilə Küveyt arasında dərin tarixi köklərə söykənən və dostluq prinsiplərinə əsasında qurulmuş ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini məmnunluqla vurğulayıb. Nazir bir sıra sahələrdə əməkdaşlığın inkişafı üçün geniş imkanların olduğunu qeyd edib.

Səfir Səud Əbdüləziz Əlrumi Ceyhun Bayramovu Xarici İşlər naziri təyin olunması münasibətilə təbrik edib və bu xüsusda Küveyt Xarici İşlər nazirinin səmimi təbriklərini çatdırıb. Görüşdə tərəflər ikitərəfli və çoxtərəfli formatlarda əməkdaşlığın daha da genişləndirilməsi, o cümlədən beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstək məsələsinə dair fikir mübadiləsi aparılar. Nazir Ceyhun Bayramov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Küveyt səfirinə məlumat verərək, bölgənin təhlükəsizliyinə ən böyük hədə olan münaqişənin həlli ilə bağlı Azərbaycanın beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan mövqeyini qarşı tərəfin diqqətinə çatdırıb. Həmçinin Küveyt tərəfindən beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycanın haqlı mövqeyinin hər zaman dəstəkləndiyi vurğulanıb. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan pandemiya dövründə uğurlu sosial siyasət həyata keçirir

## *İlham Əliyev: "Koronavirusa qarşı mübarizədə müsbət dinamika bizi çox sevindirir"*

***COVID-19 pandemiyası peyda olarkən dünyanın ən çox inkişaf etmiş ölkələri bu sınaq qarşısında aciz qaldığı bir məqamda Azərbaycan Prezidenti İlham Əliyev elə ilk andan düşünülmüş və uğurlu addımları ilə bu çətin məqamlardan çıxmağı bacardı. Və bu gün artıq Azərbaycan koronavirusa qarşı mübarizədə müsbət nəticələrin əldə olunmasının nəticəsidir ki, artıq ölkəmizdə yumuşalma prosesi gedir. Sözsüz ki, bu ən vacib şərtdir. Çünki xalq-hakimiyyət birliyi istənilən dövlətdə siyasi sabitliyi və təhlükəsizlik mühitini şərtləndirən həlledici amildir. Bu birlik təsadüfən, öz-özünə formalaşmır. Əsas şərt xalqını arxasınca aparmağı bacaran güclü və xarizmalı lider amilinin olmasıdır.***






Bu gün Azərbaycan xalqı xoşbəxt olmaqla yanaşı qürur duymağa haqqı var ki, Ulu Öndərimiz Heydər Əliyevin uğurlu siyasətinin layiqli davamçısı ölkə Prezidenti, Ali Baş Komandanımız İlham Əliyev son 17 il ərzində ölkəmizi uca zirvələrə yüksəltməkdədir. Xüsusilə də, son 4-5 ay ərzində bütün dünyanı ağuşuna alan koronavirusa qarşı mübarizədə dövlət başçımızın düşünülmüş siyasəti nəticəsində müsbət dinamika əldə olunub. Avqustun 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizdə koronavirus pandemiyası ilə mübarizə sahəsində görülən tədbirlər və sosial-iqtisadi vəziyyətlə bağlı videoformatda müşavirədə də dövlət başçımız çıxışında da bildirdi.

Bir əsas məqamı da vurğulamaq lazımdır ki, Azərbaycan dünyanı vahiməyə salmış pandemiyaya qarşı savaşı demək olar ki, öz vəsaiti hesabına aparır. Azərbaycan yeni bir nümunə yaradır və artıq bütün dünya ölkəmizin nümunəsini öyrənməyə çalışır. Prezident İlham Əliyevin rəhbərliyi ilə görülən tədbirlər, aparılan mübarizə Azərbaycanın bu sınaqdan da daha az itki ilə çıxacağına əminlik yaradır. Ölkə başçısı bütün çıxışlarında hər bir vətəndaşı koronavirusla mübarizədə birləşməyə səsləyir -"Biz birlikdə güclüyük". Ölkə Liderinin bu çağırışına hər kəs qoşulur. Pandemiyaya qarşı mübarizədə Azərbaycanın əldə etdiyi uğurun başlıca səbəbi də milli birliyin nəticəsidir. Azərbaycan tezliklə bu mübarizədən də qalib çıxacaq. Yetər ki, məsuliyyətli olaq və qaydalara əməl edək.

### Sosial rifaha istiqamətlənən uğurlu nəticələr...

Göründüyü kimi, görülən işlər və nəticələr göz önündədir. Ölkə Prezidenti İlham Əliyevin uzaqgörən siyasətinin nəticəsi olaraq koronavirus pandemiyasının əhaliyə mənfi təsirlərini azaltmaq məqsədilə aparılan genişmiqyaslı tədbirlər öz nəticələrini verir və bu da vətəndaşlar tərəfindən böyük rəğbətlə qarşılanır. Bu tədbirlər sırasında məşğulluğa və sosial rifaha dəstək xüsusi yer tutur. Dövlətimizin başçısının 2020-ci il 19 mart tarixli Sərəncamının icrası ilə bağlı təsdiqlənmiş Tədbirlər Planında məşğulluğa və sosial rifaha dəstək məqsədilə 4 istiqamət üzrə 10 tədbir əksini tapıb. Aprelin 17-də Azərbaycan Respublikasının Prezidenti tərəfindən elan edilən yeni dəstək tədbirləri ilə 2,5 milyon vətəndaşı əhatə edən məşğulluq və sosial rifah istiqamətinə 600 milyon manat vəsait ayrıldı. Pandemiyadan ən çox zərər çəkən sahələrdə işləyən insanların əməkhaqlarının əhəmiyyətli hissəsi dövlət tərəfindən qarşılanır və bu kateqoriyaya aid olan insanların sayı 300 mindən çoxdur. Eyni zamanda, 300 minə yaxın mikro sahibkarın maliyyə vəziyyətinin təmin edilməsi üçün dövlət böyük maliyyə vəsaiti ayırdı. Beləliklə, yalnız bu kateqoriyaya aid olan 600 minə yaxın insan dövlətdən maddi dəstək alır. Dövlət sektorunda işləyənlərin əməkhaqları tam ödənilir. Bu, dövlətimizin humanist mahiyyətini, Onun siyasətinin mərkəzində Azərbaycan vətəndaşının dayandığını bir daha göstərir.

Bir sözlə, dövlət başçısının koronavirusla bağlı ardıcıl addımların atılmasında məqsəd Azərbaycan xalqının sağlamlığı olduğunu bildirib.

### "Əgər biz vaxtında bu addımları atmasaydıq, bu gün çox böyük problemlərlə, faciəvi vəziyyətlə üz-üzə qala bilərdik"

Prezident İlham Əliyev avqustun 6-da ölkəmizdə koronavirus pandemiyası ilə mübarizə sahəsində görülən tədbirlər və sosial-iqtisadi vəziyyətlə bağlı videoformatda keçirilən müşavirədə bu sahədə müsbət dinamika müşahidə olunduğunu bildirərək qeyd edib ki, bütün bu nailiyyətlərin əldə olunmasının səbəbi bu virusa qarşı vaxtında görülən tədbirlərin nəticəsidir: "Bu gün 46 xəstəxana ancaq koronavirus xəstələrinə xidmət göstərir. Onu da bildirməliyəm ki, bu 46 xəstəxananın 41-i son 17 il ərzində tikilib və ya əsaslı şəkildə təmir edilib, müasir avadanlıqlarla təchiz olunub. Əgər biz vaxtında bu addımları atmasaydıq, bu gün çox böyük problemlərlə, faciəvi vəziyyətlə üz-üzə qala bilərdik".

Dövlət başçısı adambaşına düşən testlərin sayına görə bu gün Azərbaycanın dünya miqyasında qabaqcıl yerlərdə durduğunu da deyib: "Biz qısa müddət ərzində laboratoriyalarımızın sayını beş dəfə artırdıq. Yaxın gələcəkdə alınacaq yeni laboratoriyalar imkan verəcək ki, daha da böyük sayda testlər keçirilsin. Biz bütövlükdə laboratoriyaların sayını 45-ə çatdırmalıyıq. Bu günə qədər modul tipli doqquz xəstəxana istismara verilmişdir. Onlardan dördü bir gün ərzində - iyulun 29-da fəaliyyətə başlayıb. Qobustan, İsmayıllı, Qəbələ və Şəki şəhərlərində mənim iştirakımla bu xəstəxanaların açılışı olmuşdur. Yaxın gələcəkdə modul tipli xəstəxanaların sayı bütövlükdə 16-ya çatdırılacaq və beləliklə, bizim təkcə bu xəstəxanalarda 3200 koronavirus xəstəsi müalicə ala biləcək".

"Dövlətin bütün resurslarını səfərbər etdiyi indiki şəraitdə dövləti aldatmaq, vergilərdən yayınmaq və öz maddi marağını, öz tamahını təmin etmək xəyanətdir. Bunun başqa adı ola bilməz"

Təəssüf doğuran odur ki, Azərbaycan dövləti məsələnin həll istiqamətində daha böyük nailiyyətlər əldə etmək istədiyi halda bəzi məmurların karantin rejimini pozması xalqımız tərəfindən hiddətlə qarşılanılır. Ölkə rəhbəri çıxışlarında da dəfələrlə vurğulayıb ki, neft gəlirlərimiz azalıb, ancaq insanların sağlamlığı, təhlükəsizliyi, rahatlığı və rifahı bizim üçün hər şeydən üstündür: "Bütün Azərbaycan vətəndaşlarına bir daha çağırış edib demək istəyirəm: Məsuliyyətli olun, nizam-intizamı, qaydaları pozmayın, özünüzü, uşaqlarınızı, yaxınlarınızı qoruyun ki, biz bu ağır vəziyyətdən az itkilərlə çıxa bilək! Biz birlikdə güclüyük!".

Ancaq bilmək lazımdır ki, biz hüquqt dövlətdə yaşayırıq və ölkəmizdə qanunun aliliyi hər şeydən üstündür, heç kim qanundan üstün ola bilməz. Azərbaycan Prezidenti ölkədə qanunun aliliyinin qarantıdır və hamı qanun qarşısında bərabərdir, heç bir vəzifəli şəxs öz statusundan istifadə edərək qanunları nə poza, nə də qanunun tələblərinə hörmətsiz yanaşa bilməz.

Məhz koronavirusla mübarizə zamanında isə, heç kim şəxsi mənafeyi naminə, tutduğu mövqeyə, vəzifəsinə görə insanların həyatını təhlükəyə ata və onların sağlamlığına zərər gətirə bilməz. Prezident İlham Əliyev dəfələrlə vurğulayıb ki, əgər kimsə fikirləşir ki, onun yaxınları, tanışları, qohumları, yüksək vəzifəli dostları onlara kömək edəcəklər səhv edirlər: "Azərbaycan hüquqi-demokratik dövlətdir və qanun qarşısında hamı bərabərdir".

Bir sözlə, bu gün bütün sahələrdə olduğu kimi, qanun sahəsində əldə olunan uğurlar onu deməyə əsas verir ki, kimsə qanundan yan keçmək, gizlənmək, digər vətəndaşlarla müqayisədə daha böyük üstünlüklər əldə etmək istəyində ola bilməz. Ona görə də hər kəs atdığı addımları daha dərindən ölçübbiçməli, dövlətimizin qanunlarına hörmət nümayiş etdirməlidir. Və qeyri-qanuni addımlarına, fərdi statusuna görə tutduğu vəzifədən asılı olmayaraq hər kəs törətdiyi əməllərin cəzasının qanun çərçivəsində almalıdır və alacaq da! Çünki qanun şahdır, şah qanun deyil. Və hər bir şəxs də mövcud reallığı, qanunun aliliyini, Azərbaycan Prezidentinin mövqeyini və ali iradəsini bilməli və başa düşməlidir ki, qanun pozuntusuna görə mütləq və mütləq şəkildə hər kəs əməlinə görə cavab verəcək, heç kim məsuliyyətdən yayına bilməyəcək. Çünki, Azərbaycan Respublikasında heç kim qanundan üstün ola bilməz!.

Bir sözlə, insanların sağlamlığı və daha az itki ilə çıxmaq üçün hər kəs vətəndaşlıq borcunu yüksək səviyyədə yerinə yetirməli, karantin qaydalarına riayət etməklə dövlətvətəndaş birliyinə öz töhfəsini verməlidir.

**RƏFİQƏ KAMALQIZI**

# Prezidentin köməkçisi Hikmət Hacıyev beynəlxalq əməkdaşlıq sahəsində fəaliyyət göstərən QHT-lərlə görüşüb







***Avqustun 28-də Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev beynəlxalq əməkdaşlıq sahəsində fəaliyyət göstərən 25 QHT-nin sədri ilə görüş keçirib. Bu barədəAZƏRTAC-a Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının İctimaiyyətlə əlaqələr bölməsindən məlumat verilib.***

Görüşü giriş sözü ilə açan Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri Azay Quliyev bildirib ki, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə dolğun və səmərəli şəkildə çatdırılması, milli-mənəvi dəyərlərimizin, mədəni irsimizin təbliği, Ermənistanın işğalçılıq siyasətinin beynəlxalq platformalarda ifşa olunması müvafiq dövlət qurumları ilə yanaşı, QHT sektoru üçün də prioritet məsələdir. Buna görə də şura daim QHT-lərin bu istiqamətdə olan təşəbbüs və layihələrini dəstəkləyir. O, inandığını bildirib ki, Prezidentin köməkçisi - Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin bugünkü görüşü beynəlxalq əməkdaşlıq sahəsində çalışan QHT-lərin fəaliyyətini daha da stimullaşdıracaq.

Prezidentin köməkçisi Hikmət Hacıyev dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin qətiyyətli və milli maraqlarımızı əsas tutan siyasət apardığını bildirib. O vurğulayıb ki, Prezident İlham Əliyevin həyata keçirdiyi xarici siyasət nəticəsində ölkəmiz beynəlxalq aləmdə ciddi nüfuza malik olan ölkəyə çevrilib. Hazırda dünyanın 120 ölkəsinin üzv olduğu Qoşulmama Hərəkatına Prezident İlham Əliyevin sədrlik etməsi beynəlxalq aləmin ölkəmizə göstərdiyi yüksək etimadın növbəti təzahürüdür.

Hikmət Hacıyev Prezidentin rəhbərliyi ilə Azərbaycanın hücum diplomatiyası siyasəti yürütdüyünü və bütün önəmli beynəlxalq təşkilatların Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı ölkəmizin ədalətli mövqeyini müdafiə etdiyini deyib.

Prezidentin köməkçisi bugünkü görüşün əhəmiyyətinə toxunaraq QHT rəhbərlərini dinləmək, onların beynəlxalq əməkdaşlıq istiqamətində fikir və ideyaları, həmçinin layihə təklifləri ilə yaxından tanış olmaq istədiyini bildirib.

Görüşdə Hüquqi Təhlil və Araşdırmalar İctimai Birliyinin sədri Ramil İsgəndərli, "Bakı Şəbəkəsi" araşdırmalar və təhlil İctimai Birliyinin sədri Elxan Ələsgərov, Azərbaycan Gənclərinin Avropaya İnteqrasiyası Təşkilatının İdarə Heyətinin üzvü Nərgiz Eyvazova, Beynəlxalq Dialoq və İnkişaf Alyansı İctimai Birliyinin sədri Nüşabə Məmmədova, İqtisadi və Sosial İnkişaf Mərkəzi İctimai Birliyinin sədri Əhməd Əlili, Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının sədri Məryəm Məcidova, İctimaiyyətlə Əlaqələrin İnkişafına Kömək İctimai Birliyinin sədri Şəlalə Həsənova, Azərbaycan-Slavyan Gəncləri Assosiasiyası İctimai Birliyinin sədri Səbuhi Abbasov, Gənclər üçün Təhsil Mərkəzinin sədri Fəxrəddin Həsənzadə, "Misra" informasiya mübadiləsi və təşəbbüsləri İctimai Birliyinin sədri Fuad Abbasov, Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının sədri Sahib Məmmədov, Azərbaycan-Amerika Gəncləri İctimai Birliyinin sədri Vüqar Əhmədov, "Azərbaycandakı Rus İcması" İctimai Birliyinin üzvü Anastasiya Lavrina, "Diaspor Fəaliyyətinə Jurnalistlərin Dəstəyi" İctimai Birliyinin sədri Fuad Hüseynzadə, "Sağlam Düşüncə" Gənclər Təşkilatı İctimai Birliyinin təsisçisi Ramiz Əliyev, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının sədri Faiq Məmmədov, "Azərbaycan Jurnalistlər Şəbəkəsi" İctimai Birliyinin sədri Ayaz Mirzəyev, "Sönməz Məşəl" Mədəni Əlaqələr İctimai Birliyinin sədri Şəhla Nağıyeva, İslahatçı Gənclər İctimai Birliyinin sədri Fərid Şahbazlı, "Üçüncü Sektor" İctimai Birliyinin icraçı direktoru Toğrul Allahverdili, Azərbaycan Gənclərinin Avropaya İnteqrasiyası Təşkilatının sədri Məryəmxanım Tağıyeva-Zeynalova, "Gəncliyin Şöləsi" Gənclərin İnkişafı İctimai Birliyinin sədri Qurban Kərimbəyli, Gənc Demokratlar İnstitutu İctimai Birliyinin sədri Yeganə Hacıyeva, "Avropa Gənclər Parlamenti - Azərbaycan" İctimai Birliyinin sədri Rəfail Ağayev və Qərbi Azərbaycan İctimai Birliyi Gənclər Təşkilatının sədri Günay Vəlizadə iştirak ediblər.

Çıxış edən QHT rəhbərləri QHT-lərlə başlanılan dialoqa və bugünkü görüşə görə Hikmət Hacıyevə təşəkkürlərini bildiriblər. QHT rəhbərləri fəaliyyət göstərdikləri sahə ilə bağlı fikir və təkliflərini səsləndiriblər.

Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov görüşdə çıxış edərək fondun beynəlxalq əməkdaşlıq sahəsində həyata keçirdiyi layihələr və gələcək prioritet istiqamətlər haqqında ətraflı məlumat verib.

Yekunda çıxış edən Prezidentin köməkçisi Hikmət Hacıyev QHT-lərin beynəlxalq əməkdaşlığının gücləndirilməsinin vacibliyini qeyd edib və əsaslandırılmış təkliflərin nəzərə alınacağını bildirib. Qeyd edək ki, Prezidentin köməkçisi Hikmət Hacıyevin QHT-lərlə görüşü davam edəcək.

## ÜST: Həmrəylik ruhu koronavirusu da nəzarətə götürməyimizə kömək edəcək

***Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) rəhbəri Cenevrədə keçirilən brifinqdə Afrikada vəhşi poliovirus üzərində tam qələbə barədə məlumatları təsdiqləyib. SİA BMT-nin Xəbərlər xidmətinə istinadla bildirir ki, doktor Tedros Qebreyesus bu virusun məhz Afrika xalqlarının və hökumətlərinin məqsədyönlü fəaliyyəti, həmçinin ÜST-nin beynəlxalq tərəfdaşlarının köməyi sayəsində aradan qaldırıldığını vurğulayıb. Tedros Qebreyesus Afrikaya poliovirusa qarşı 1996-cı ildən bəri təxminən 9 milyon vaksinin gətirildiyini və bunun sayəsində 1,8 milyon insanın poliomielit xəstəliyinə tutulmasının qarşısının alındığını və azı 180 min nəfərin xilas edildiyini söyləyib.***

ÜST-nin rəhbəri beynəlxalq maliyyə dəstəyinin poliovirusun yalnız qitədə qarşısının alınmasında deyil, həm də Afrika ölkələrinin səhiyyə sistemlərinin gücləndirilməsində mühüm rol oynadığını söyləyib. O, bu dəstəyin Ebola və koronavirusa qarşı mübarizədə də səmərəli olmasını xatırladaraq, tibb işçilərinin yetişdirilməsində və zəruri infrastrukturun yaradılmasında xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıb. "Afrikada vəhşi poliovirusun aradan qaldırılması mühüm nailiyyətdir. Bu, həmrəylik ruhu bizi birləşdirən zaman əldə edə bildiyimiz mühüm nailiyyətləri xatırladır. Ölkələr arasında COVID-19 pandemiyasını nəzarətə götürmək üçün də bir-birimizə dəstək olmağımız çox vacibdir", - deyə T.Qebreyesus bildirib.

## Ayk Nahapetyan: "Erməni kimliyi təhlükə altındadır"



Ermənistanda başlayan və davam edən informasiya müharibəsi, şəxsiyyətimizə, dəyərlərimizə və inanclarımıza, əcdadlarımızdan miras qalan ənənələrə qarşı yönəlmiş həyati vacib sfera ətrafında cərəyan edir. SİA Ermənistana məxsus tert.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu sözləri hərbi ekspert Ayk Nahapetyan bu gün milli kilsəni, dili, mədəni irsi və uşaqlığı qorumaq üçün mexanizmlər təklif edən son hazırlanan qanun layihəsi ilə bağlı qanunvericilik müzakirələri zamanı deyib. "Keçmişdə və bu günlərdə qəbul edilmiş konvensiyalar və hüquqi aktlar, mövcudluğu tarixi boyunca erməni xalqının təməl daşı olan şəxsiyyətimizlə qarşı-qarşıya qalmağı hədəfləyir. Bu təşəbbüsün əsas məqsədi problemlərlə üzləşmək və təhdidləri aradan qaldırmaqdır", deyə Ayk Nahapetyan bildirib.

# XİN: "Ermənistan rəhbərliyinin humanizm və humanitar hüquqla bağlı Azərbaycana ittiham irəli sürməsi riyakarlığın ən son həddidir"

***Ermənistan rəhbərliyinin humanizm və humanitar hüquqla bağlı Azərbaycana ittiham irəli sürməsi riyakarlığın ən son həddidir. AZƏRTAC xəbər verir ki, bu fikir Azərbaycan Xarici İşlər Nazirliyinin açıqlamasında yer alıb. Açıqlamada deyilir: "2020-ci il avqustun 23-də Azərbaycan və Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasının Goranboy rayonu istiqamətində təmas xəttində Ermənistan silahlı qüvvələrinin diversiya-kəşfiyyat qrupu təxribat törətməyə cəhd edib. Azərbaycan silahlı qüvvələrinin bölmələri tərəfindən görülən qəti tədbirlər nəticəsində təxribatın qarşısı alınıb, təxribat qrupunun rəhbəri Ermənistan silahlı qüvvələrinin baş leytenantı Qurgen Alaverdyan zərərsizləşdirilib.***



İstintaqa cəlb edilmiş sözügedən şəxs Ermənistan silahlı qüvvələrinin rəhbərliyi tərəfindən Azərbaycan Respublikasının silahlı qüvvələrinin şəxsi heyətinə və hərbi infrastruktura zərər yetirmək tapşırığı əsasında bir qrup Ermənistan hərbçisi ilə birlikdə Azərbaycan Ordusunun mövqelərinə basqın təşkil etmək niyyəti ilə hərəkət etdiklərini etiraf edib.

Ermənistan silahlı qüvvələri tərəfindən cəbhə xəttinin müxtəlif hissələrində son günlər intensivləşən kəşfiyyat tədbirləri, o cümlədən pilotsuz uçuş aparatlarından istifadənin genişlənməsinin müşahidə edildiyi bir vaxtda Qurgen Alaverdyanın rəhbərliyi ilə həyata keçirilən kəşfiyyat-diversiya fəaliyyəti Ermənistan hərbi-siyasi rəhbərliyinin cəbhə xəttində növbəti hərbi avantüra güddüyünü göstərir və hərbi vəziyyəti gərginləşdirmək niyyətinin göstəricisi kimi qəbul edilməlidir.

Ermənistanın bu mənfur niyyətinin ifşa olunmasından sonra keçirdiyi isteriya və panika vəziyyətində Azərbaycana qarşı əsassız və sərsəm ittihamlar səsləndirməsi beynəlxalq ictimaiyyətin və erməni cəmiyyətinin diqqətini öz hərbi avantürist siyasətinin uğursuzluqlarından yayındırmaq cəhdidir.

Ermənistan tərəfinin Azərbaycana qarşı beynəlxalq humanitar hüququn pozulması, "ermənifobiya" kimi əsassız ittihamlar ehtiva edən bəyanatlarını qətiyyətlə rədd edirik. Azərbaycan tərəfi əsir götürülən Qurgen Alaverdyana münasibətdə humanitar hüququn tələblərinə uyğun olaraq davranıb.

Bu xüsusda, yada salmaq yerinə düşər ki, Azərbaycana qarşı beynəlxalq humanitar hüququn pozulmasına dair iddialar irəli sürən ölkə 30 ilə yaxındır Azərbaycan Respublikasına qarşı müharibə və insanlıq əleyhinə cinayətlər, o cümlədən soyqırımı və etnik təmizləmə ilə müşayiət olunan hərbi təcavüz aktı törədən Ermənistandır. Ermənistanın Azərbaycan Respublikasına qarşı təcavüzü nəticəsində 20000 azərbaycanlı qətlə yetirilib, 50000 şəxs əlil olub, bir milyona yaxın mülki şəxs öz doğma yaşayış yerlərindən zorla vəhşicəsinə qovulub, 5364 nəfər itkin düşüb, əsir və girov götürülərək Ermənistan tərəfindən ağır işgəncə və alçaldıcı rəftara məruz qalıb. Bu şəxslərdən 4000-ə yaxın insanın taleyi hələ də məlum deyil.

Ermənistan hazırda soydaşlarımız, mülki şəxslər Dilqəm Əsgərov və Şahbaz Quliyevi girovluqda saxlayaraq, onları işgəncəyə məruz qoyub, qanunsuz olaraq azadlıqdan məhrum edib.

Ermənistan silahlı qüvvələrinin zabitinin əsir götürülməsi kontekstində humanitar hüququ, o cümlədən Cenevrə konvensiyalarını yadına salan Ermənistan, bu ölkənin əvvəlki və hazırkı hakimiyyəti Azərbaycanın beynəlxalq ictimaiyyət, o cümlədən ATƏT-in Minsk qrupunun həmsədri olan ölkələr tərəfindən dəstəklənən hər iki tərəfdə olan əsir və girovların "hamının hamıya qarşı" prinsipi ilə dəyişdirilməsi təklifinə inadkarcasına etiraz etdiyini unutmamalıdır.

Azərbaycana qarşı sərsəm iddialar irəli sürən Ermənistan insanlığın ən adi dəyərlərini və beynəlxalq humanitar hüququn ən ümdə prinsiplərini heçə sayaraq, münaqişə gedişində həlak olmuş şəxslərin meyitlərini belə siyasi və maddi qazanc obyekti etməkdən çəkinməyib, meyitlərə münasibətdə onların peşələrinə və ya hərbi rütbələrinə uyğun olaraq "qiymət cədvəli" tətbiq etmiş bir dövlət olaraq, humanizm, tolerantlıq və bu kimi ideyalardan danışmağa mənəvi haqqını çoxdan itirib.

Ermənistanın əvvəlki hərbi-siyasi rəhbərliyinin Azərbaycana və onun mülki vətəndaşlarına qarşı törədilmiş ağır müharibə və insanlıq əleyhinə cinayətlərə görə üzr istəməkdən açıq-aydın boyun qaçıran hazırkı Ermənistan rəhbərliyinin humanizm və humanitar hüquqla bağlı Azərbaycana ittiham irəli sürməsi riyakarlığın ən son həddidir.

Azərbaycana qarşı sülhün təsisi üçün əlverişli mühitə zərbə vurmaqla bağlı ittiham irəli sürən Ermənistan cari ilin 12-16 iyul tarixlərində dövlət sərhədinin Tovuz istiqamətində cəhd etdiyi hücum, bunun ardınca cəbhə xəttində vəziyyəti gərginləşdirən, münaqişənin nizama salınması cəhdlərinə zərbə vuran təhrikçi və təxribat xarakterli bəyanat və hərəkətləri ilə yaranmış vəziyyətə görə məsuliyyəti öz boynundan atmağa hədəflənmiş uğursuz cəhd göstərir.

Dünya ictimaiyyəti Tovuz istiqamətində vəziyyətin məqsədyönlü gərginləşməsində Ermənistanın hərbi-siyasi rəhbərliyinin birmənalı məsuliyyət daşıdığını anlayır və bu ölkənin hərbi əsir Qurgen Alaverdyan ətrafında vəziyyətdən diqqəti yayındırmaq məqsədilə istifadə etmək cəhdi uğursuzluğa məhkumdur.

Azərbaycan tərəfi bir daha Ermənistan tərəfinin ölkəmizə qarşı humanitar hüququn pozulması və "ermənifobiya" ilə bağlı əsassız ittihamları qətiyyətlə rədd edir, beynəlxalq ictimaiyyəti bu ölkəni bölgədə onsuz da həssas olan vəziyyəti gərginləşdirmək cəhdlərindən çəkindirmək üçün əməli addımlar atmağa çağırır".

# Erməni general: "Azərbaycanın növbəti addımları oktyabr-noyabr aylarında görünəcək"

***Ermənilərin "Komandos" adlandırdıqları general-mayoru Arkadi Ter-Tadevosyan lokal müharibə proqnozlarını verərkən, bir sıra məqamlara toxunaraq, bunun mümkünlüyünü istisna etməyib.SİA 1in.am-a istinadən xəbər verir ki, adıçəkilən sayta verdiyi müsahibəsi zamanı erməni general-mayorunun dediyinə görə, müharibə ehtimalının olması Rusiyanın özünü hansı mövqedə saxlamasından da asılı ola bilər.***



"Bu pisdir ki, biz çətin vəziyyətdən çıxmağa çalışarkən, öz səhvlərimizi başqalarının üzərinə atmağa çalışırıq", deyən Ter-Tadevosyan rusların Ermənistanın hazırkı rəhbərliyi tərəfindən hədəfə alınmasını doğru hesab etmədiyini də bildirib: "Ruslar kömək etmədilər, lazım olanları vermədilər, ya da başqa hansısa dediyimizi eləmədilər və s. kimi məsələlərdə biz səhvlərə yol veririk, həm də susuruq".

***Rövşən***

# "Hökumət manatın məzənnəsi ilə bağlı inzibati qərar qəbul edə bilər"

***"Azərbaycanda məzənnə istənilən dalğalanmalardan özünü siyasi və inzibati qərarlarla qoruyur. Ona görə də, dünyada gedən proseslərin Azərbaycan manatına hansısa birbaşa təsirinin olacağını düşünmürəm. Manatın dollar qarşısında ucuzlaşması, ümumiyyətlə, mümkün deyil". Bu sözləri SİA-ya açıqlamasında Respublikaçı Alternativ Partiyasının Siyasi Komitəsinin üzvü, iqtisadçı Natiq Cəfərli, dünyada ABŞ dollarının ucuzlaşması fonunda bunun Azərbaycanda AZN/USA Dollar məzənnəsinə necə təsir edəcəyindən danışarkən deyib.***

Onun sözlərinə görə, dünyada dollar indeksinin azalmasının əsas səbəbi dünya iqtisadiyyatında, o cümlədən, ABŞ iqtisadiyyatında baş verən proseslərdir: "ABŞ iqtisadiyyatında ciddi dağılmalar müşahidə olunur. Açığı, ABŞ Federal Rezerv Sistemi və mərkəzi hökumətin özünün marağı var ki, dollar indeksi, dolların digər valyutalara nisbətən məzənnəsi bir az ucuzlaşsın. Çünki, ixracatçı ölkələr öz valyutalarının ucuzlaşmasından həmişə udurlar. ABŞ da ən böyük ixracatçı ölkələrdən biridir. ABŞ dolları ucuzlaşdıqca əsas ticarət portnyorları olan Avropa birliyi ölkələrinin valyutası, yəni, avro qarşısında ucuzlaşdıqca Amerikadan mal sifarişləri və ixracat artır. Ona görə də bu Amerika üçün elə də təhlükəli hal deyil. Əksinə mən düşünürəm ki, iqtisadiyyata müəyyən pozitiv təsirləri də var".

Dolların ucuzlaşmasının Azərbaycan manatına olan münasibətindən danışan iqtisadçı bildirib ki, Azərbaycanda məzənnə inzibati qaydada tənzimlənir, yəni, ölkəmizdə dünya birjalarında gedən proseslərin birbaşa əksi görünmür: "Azərbaycanda məzənnə sistemi inzibati qaydada Mərkəzi Bank və hökumət tərəfindən qəbul edilən qərarla tənzimlənir. Son 3 ilə yaxındır ki, məzənnə sabitdir. Yəni, istənilən dalğalanmalardan özünü siyasi və inzibati qərarlarla qoruyur. Ona görə də, dünyada gedən proseslərin Azərbaycan manatına hansısa birbaşa təsirinin olacağını düşünmürəm. Manatın dollar qarşısında ucuzlaşması, ümumiyyətlə, mümkün deyil. İndiki iqtisadi şəraitdə və neft qiymətlərinin aşağı düşməsi fonunda ən azından birbaşa təsirlərin olmayacağını indidən söyləmək olar".



Natiq Cəfərli qeyd edib ki, Azərbaycanın Mərkəzi Bankı və hökumət manatın məzənnəsi ilə bağlı müəyyən bir qərar verməlidir: "Çünki, ətraf ölkələrin, yəni, bizimlə qonşu və ticarət tərəfdaşı olan ölkələrin milli valyutalarının zəifləməsi (hazırda türk lirəsi, rus rublu zəifləyib) Azərbaycan manatının isə indiki səviyyədə qalması bizim ixracat potensialımıza mənfi təsir göstərir, idxalı isə stimullaşdırır. Ona görə də, hökumət ilin sonuna qədər inzibati qərar verə bilər və bu qərarla manatın məzənnəsində müəyyən dəyişikliklərə gedilə bilər. Lakin, çox güman ki, manatın bahalaşması yox, ucuzlaşması müzakirə obyekti olacaq".

***Nigar Məmmədova***

# Vüqar Rəhimzadə: Dünya erməni təxribatlarına göz yumduqca...

*"Avqustun 23-də cəbhənin Goranboy rayonu istiqamətində Ermənistan silahlı qüvvələrinin diversiya-kəşfiyyat qrupunun təxribat törətmək cəhdi Ermənistanın işğalçılıq siyasətinin növbəti təzahürüdür. İşğalçı dövlət açıq-aşkar beynəlxalq hüququn norma və prinsiplərinə məhəl qoymadığını, bəzi xarici havadarlarına arxalandığını təsdiqləyir. Çünki iyulun 12-də Ermənistan silahlı qüvvələri Azərbaycan-Ermənistan sərhədinin Tovuz istiqamətində təxribat törətmiş və onun qarşısı Azərbaycan Ordusu tərəfindən qətiyyətlə alınmışdır.*



Dünyanın, xüsusilə münaqişənin həllində vasitəçilik missiyasını yerinə yetirən ATƏT-in Minsk qrupunun həmsədrlərinin həmin təxribata laqeyd münasibəti, seyrçi mövqedə dayanmağı çıxış yolu hesab etmələri diqqətdən kənarda qalmadı. Məhz bu seyrçiliklər ermənilərin daha böyük iddialarla yaşamalarına, Azərbaycanın nəinki Qarabağ, digər sərhəd əraziləri istiqamətində təxribatlarına stimul verir. Zaman-zaman Azərbaycana qarşı əsassız torpaq iddiası ilə çıxış edən işğalçı Ermənistan görünür "böyük Ermənistan" xülyasını hələ unutmayıb. Azərbaycan dövlətinin qətiyyəti, xalqımızın iradəsi, ordumuzun gücü, qüdrəti işğalçı dövlətin bütün cəhdlərini boşa çıxarır, belə bir reallığı ortaya qoyur ki, Ermənistandan fərqli olaraq Azərbaycan öz müstəqil siyasəti, tarixi həqiqətləri ilə fakt qarşısında aciz olmamaqla yanaşı, eyni zamanda, döyüş meydanında düşməni yerində oturtmaq imkanında, gücündədir."

Bu fikirləri Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə KİV-ə açıqlamasında bildirib.

V.Rəhimzadə qeyd edib ki, Goranboy rayonu istiqamətində baş verən təxribatlar onu göstərdi ki, Azərbaycan nəinki Ermənistan silahlı qüvvələrinin cavabını verdi, həmçinin diversiya-kəşfiyyat qrupunun komandiri Qurgen Alaverdyan hərbçilərimiz tərəfindən əsir götürüldü: "Onun üzərindən bir sıra hərbi ləvazimatlar, şəxsi əşyalar aşkarlanıb. Bu təxribatın əsas hədəfi Azərbaycan Ordusunun hərbi hissələri və əsgərlərimiz olub. Amma ordumuzun gücü, ayıq- sayıqlığı nəticəsində bu cəhdin qarşısı alınıb, düşmən itkilər verib, rəzil durumda geri qayıtmaga məcbur olub. Qurgen Alaverdyan yaydığı videomüraciətdə təlimata uyğun hərəkət etdiklərini, yaxın vaxtlarda Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Goranboy rayonunda təmas xəttindəki döyüş mövqelərində diversiya törədilməsi, yəni, qumbara və avtomat silahlardan istifadə edərək mümkün qədər çoxlu sayda Azərbaycan hərbçisinin məhv edilməsi, eləcə də bir hərbçinin əsir götürülməsi ilə bağlı əməliyyat keçirilməsi üçün hazırlıq görülməsi tapşırığını aldıqlarını etiraf etmişdir. Mərhələli şəkildə həyata keçirdikləri əməliyyat planına uyğun olaraq avqustun 23-də saat 02:30 radələrində Azərbaycan Silahlı Qüvvələrinin döyüş postuna daxil olmaq istəyərkən Azərbaycan hərbçiləri tərəfindən verilən "Həyəcan" siqnalı əsasında aşkar olunduqlarını anlayaraq geri qayıtmaq məcburiyyətndə qalmışlar. Bu, Ermənistan ordusunun diversiya qrupunun əsir götürülmüş komandirinin etirafıdır. Buna təfsilatı ilə bir daha nəzər yetirməyimizin səbəbi Ermənistan hakimiyyətinin 12 iyul təxribatında olduğu kimi, Goranboy təxribatında da reallıqları ört-basdır etmək, itkilərini gizlətmək üçün "fədakarlıq" göstərməsidir. Ermənistan Müdafiə Nazirliyinin mətbuat katibi Şuşan Stepanyan komandir Qurgen Alaverdyanın guya "hərbi mövqeləri yoxlamaq üçün" gedərkən hava şəraitinin pis olması səbəbindən azdığını, hazırda onun axtarışının davam etdirildiyini bildirib. Hər zaman yalanın həqiqət üzərində qələbəsinə cəhd edən ermənilər bunun mümkünsüzlüyünün fərqində olsalar da yenə də xislətlərinə uyğun addımlarından əl çəkmək istəmirlər."

V.Rəhimzadə diqqəti dövlətimizin başçısı İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında söylədiyi fikirlərə yönəldib. "Ermənistan heç vaxt açıq döyüşdə qələbə qazana bilməyib" söyləyən möhtərəm Prezidentimiz İlham Əliyev bildirmişdir ki, Ermənistan ancaq əliyalın insanlara qarşı vuruşub, qocalara, uşaqlara qarşı soyqırımı törədib.

Baş redaktor bildirib ki, münaqişənin həllində vasitəçilik missiyasını yerinə yetirən ATƏT-in Minsk qrupu ya buraxılmalı, ya da işğalçını öz adı ilə çağırıb, illərdən bəri həllini gözləyən münaqişənin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində nizamlanmasına yardımçı olmalıdır: "Azərbaycan xalqının mənasız danışıqlardan bezdiyini bildirən möhtərəm Prezidentimiz İlham Əliyev qeyd edir ki, ona görə bu məsələ ilə məşğul olanlar və bu günlər ərzində öz vasitəçilik təkliflərini irəli sürənlər bu haqda düşünsünlər. Azərbaycan xalqının səbri tükənməz deyil. Azərbaycanın güclü, işğal altında olan torpaqlarımızı azad etməyə qadir ordusu vardır. Bu gün xalq-iqtidar birliyi Azərbaycanda sabitliyin inkişafının əsas şərtidir. Ermənistan-Azərbayan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bir addım belə geri atılmayacaq. Azərbayanın ərazi bütövlüyü bərpa edilməlidir və dövlətimizin bu məsələ ilə bağlı mövqeyi dəyişməzdir."

Ermənistanın hərbi təxribatının səbəblərindən bəhs edən Vüqar Rəhimzadə vurğulayıb ki, bunlardan biri düşmən ölkədəki iqtisadi və siyasi böhrandır: "Xaricdən maliyyələşən, xarici fondlardan maliyyə, təlimat alan və onların çevriliş texnologiyalarından bəhrələnən dəstə iki il bundan əvvəl hakimiyyəti qanunsuz yolla zəbt edəndən sonra bir çox vədlər vermiş, Ermənistanda çiçəklənmə, cənnət olacağını bildirmişdi. Amma bu vədləri yerinə yetirmək üçün hakimiyyətdə nə təcrübə, nə səriştə, nə də daxili resurs var idi. Bu vədlərin iflasa uğraması Ermənistanda böhranlı vəziyyət yaradıb. Hazırda koronavirus infeksiyasına qarşı mübarizə dövründə bu bəladan daha çox zərər çəkən işğalçı dövlətdir. Hakimiyyət COVID-19-la mübarizədə heç bir təcrübə, çıxış yolu ortaya qoya bilməyib. Çıxılmaz vəziyyətdə olan işğalçı dövlətin hakimiyyəti diqqəti istər daxildə, istərsə də beynəlxalq müstəvidə mövcud durumdan yayındırmaq üçün məqsədli şəkildə təxribatlara əl atır. Amma bunun da bir çıxış yolu olmadığı göz önündədir. Çünki ermənilərin, o cümlədən haqqında bəhs etdiyimiz Ermənistan ordusunun diversiya qrupunun əsir götürülmüş komandirinin etiraflarında vurğulandığı kimi, Ermənistan ordusunun Azərbaycan Silahlı Qüvvələrinə qalib gəlmək şansı yoxdur."

# "Sərt karantin tədbirləri ilə koronavirusun yayılma sürətini azaltmağı bacardıq"

**"Azərbaycanda koronavirus pandemiyasına qarşı aparılan mübarizə çərçivəsində həyata keçirilən sistemli tədbirlər, vətəndaşların məsuliyyəti və mövcud qaydalara əməl etməsi nəticəsində müsbət nəticələr əldə edilib. Bu mənada, hazırda Azərbaycanda yoluxanların və vəfat edənlərin sayının azlığına, habelə yoluxma və sağalma hallarının nisbətinə görə ən yaxşı nəticələr nümayiş etdirən ölkələr sırasındadır". Bunu SİA-ya millət vəkili Elman Nəsirov deyib.**

Deputatın sözlərinə görə, Azərbaycan epidemiyanın ilk və olduqca təhlükəli mərhələsindən ən az sayda itkilərlə çıxan dövlətlər sırasında yer alıb: "Biz ən əsas məsələlərə - virusun sürətlə yayılmasının qarşısını almağa, epidemiya ilə mübarizənin bütün aspektlərini əlaqələndirən peşəkar komanda yaratmağa, lazımi texniki və insan resurslarını birləşdirməyə müvəffəq olduq. Sərt karantin tədbirləri sayəsində koronavirusun yayılma sürətini azaltmağı bacardıq. Səhiyyə sistemi qısa müddət ərzində təhlükəli epidemiyaya qarşı effektiv müqavimət strategiyası işləyib hazırladı".



E.Nəsirov bildirib ki, Azərbaycan Prezidentinin həyata keçirdiyi siyasət bir daha göstərir ki, dövlətimiz üçün insan amili, vətəndaşların sağlamlığı, təhlükəsizliyi, ölkəmizin inkişafı və cəmiyyətimizin rifahı başlıca vəzifədir və bu məqsədə nail olmaq üçün bütün vasitələrdən istifadə olunur: "Bütün bunlarla yanaşı, qarşıda duran ən mühüm vəzifələrdən biri əldə olunmuş uğurun qorunub saxlanması və möhkəmləndirilməsidir. Son həftələr ölkədə karantin müddətinin uzadılmasına ehtiyacın olması da, məhz dövlətin öz vətəndaşının sağlamlığını hər şeydən üstün tutmasının reallığını təsdiq edən amildir. Hazırkı dövrdə ölkəmizdə qənaətbəxş dinamikanın olmasına baxmayaraq, mövcud sanitar-epidemioloji vəziyyətin təhlili xüsusi karantin rejiminin uzadılmasına ehtiyac olduğunu göstərir. Yoluxma təhlükəsinin yüksək olduğu Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu istisna olmaqla, digər 10 rayonun (Cəlilabad, Gəncə, Masallı, Mingəçevir, Yevlax şəhərləri və Bərdə, Goranboy, Göygöl, Xaçmaz, Salyan) "sarı" zonaya keçirilməsi mümkündür. Uzun müddətdir bu rayonlarda yoluxma faktlarının aşağı səviyyədə olması buna tam şərait yaradır. Həmçinin sanitar-epidemoloji vəziyyətdən asılı olaraq və ciddi nəzarət mexanizmi tətbiq edilməklə qadağaların tətbiq olunduğu bir sıra sahələrdə - tədris, repetitor xidmətləri və s. məhdudiyyətlərin aradan qaldırılması mümkündür.

Azərbaycanda həyata keçirilən tədbirlər, bu gün də görülən çox mühüm işlər ümid verir ki, biz bu xəstəliyin qarşısını müvəffəqiyyətlə alacağıq. Biz insanlardan tələb olunan, maska taxılması, sosial məsafə saxlanması, gigiyenik qaydalara əməl olunması, ümsiyyətdən çəkinmək, daha çox toplaşmamaq kimi deyilən o qaydalara əməl olunması mütləq yerinə yetirilməlidir. Vətəndaşlar COVID-19-un müalicəsi üçün vaksin tapılmayana kimi mümkün qədər məsuliyyətli davranmalı, maksimum özümüzü və ətrafımızı qorumağa davam etməliyik".

## "Dəniz kuboku" müsabiqəsi davam edir



"Beynəlxalq Ordu Oyunları - 2020" yarışları çərçivəsində Azərbaycan ərazi sularında keçirilən "Dəniz kuboku" müsabiqəsi davam edir. Müdafiə Nazirliyindən SİA-ya verilən məlumata görə, müsabiqə dövründə komandalar "Üzən minaya artilleriya atışı", "Kiçik ölçülü dəniz hədəfi üzrə artilleriya atışı" və "Təlim məşq kompleksində suyun daxil olmasına qarşı mübarizə" çalışmaları üzrə bacarıq və vərdişlərini nümayiş etdirərək tapşırıqlar icra edib.

Keçirilən 3 mərhələnin yekun nəticəsinə görə beynəlxalq hakimlər briqadasının qərarına əsasən Azərbaycan və Rusiya komandaları bərabər bal toplayıblar. "Dəniz kuboku" müsabiqəsi sentyabrın 5-dək davam edəcək.

## Artur Qambaryan: "Ermənistan vətəndaşları hüquqlarından məhrum edilir"

"Konstitusiya və Kassasiya Məhkəmələrinin funksiyalarını həyata keçirmək üçün ali məhkəmə orqanının yaradılması təklifi, ayrı-ayrı vətəndaşların konstitusiya hüququndan "məhrum edilməsi" ilə eynidir və Ermənistan vətəndaşları hüquqlarından məhrum edilir." SİA Ermənistana məxsus tert.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu sözləri əsas qanuna dəyişikliklər hazırlayan hökumət kollegiyasının üzvü Artur Qambaryanın deyib.

Artur Qambaryan Facebook-dakı bir ictimai paylaşımda bu yaxınlarda təsdiqlənmiş islahatı tənqid edərək, bunu Ali Məhkəməyə fərdi müraciət hüququnu əngəlləmək cəhdi adlandırıb. Qambaryan qeyd edib ki, 2009-cu ildən 2020-ci ilədək məhkəməyə doqquz müraciət daxil olub, onlardan yalnız biri məqbul sayılaraq icraata köçürülüb.

# Ermənistanın “yeni milli təhlükəsizlik strategiy

***Rəsmi İrəvan növbəti təxribatçı addımını atdı. Bu dəfə “strateji” adlandırdığı kağız parçası ilə dünyanı aldatmaq işinə girişdi. Milli təhlükəsizliklə bağlı sənədlərdə gözlənilən normalar çoxdan məlumdur. Çünki normal ölkə öz təhlükəsizliyini lokal və keçici maraqlarla deyil, fundamental, obyektiv, müasir dünyanın şərtlərinə uyğun dərin əsaslandırılmış və dövlətin strateji məqsədlərinə real olaraq xidmət edən sistemli, məntiqli yanaşma prizmasından təqdim etməlidir. Ermənistan rəhbərliyinin “sənəd”i isə başdan-ayağa indiki iqtidarın məhdud siyasi baxışlarının, proseslərə qərəzli münasibətinin zəif və ziddiyyətli məntiqlə izahına cəhddən başqa bir şey deyildir. Nikol Paşinyanın yazdığı ön söz isə orta səviyyəli qəzet məqaləsi belə deyil. Əslində, Ermənistan sənəd hazırlamayıb. Növbəti dəfə belə ciddi işlərlə məşğul olmaq iqtidarında olmadığını nümayiş etdirib. “Sənəd”də Dağlıq Qarabağ münaqişəsi, Azərbaycan və Türkiyə ilə bağlı fikirlər də yer aldığından, bütövlükdə onun geosiyasi kontekstdə təhlilinə baş vururuq. Bununla rəsmi İrəvanın bədnam niyyətlərini bir daha dünyaya açıqlamaq imkanı yaranır. Həmin “sənəd”in başqa heç bir dəyəri yoxdur.***




### “Poetik strateji sənəd”: nifrət və yalana köklənmiş yanaşma

Ermənistan növbəti dəfə dünya ictimaiyyətini aldatmağa cəhd göstərir. Rəsmi İrəvan milli təhlükəsizlik strategiyası haqqında “sənəd” hazırladığını bəyan edib və onu hətta “xalqın mühakiməsi”nə çıxarıb. Əslində isə “sənəd” real məzmununa görə nə konsepsiyadır, nə də strategiya. O, daha çox erməni şovinist, natamamlıq kompleksli siyasi şüurunun iniltilərindən ibarətdir. Açıq hiss olunur ki, Ermənistan dövlət kimi çox zəifdir, heç formalaşmayıb və orada rəsmi dairələrdə təhlükəsizlik strategiyasının nə olduğunu bilən yoxdur. “Yeni sənəd”də yer alan tezislərin məzmununa nəzər saldıqda, bunu aydın görmək olur.

Hər şeydən öncə, “sənəd”də öz əksini tapan ideyalara dövlətin təhlükəsizliyi prizmasından baxaq. Burada ön sözdə “Ermənistan dövlətçiliyi”nin tarixinə uydurulmuş, faktlarsız uzun-uzadı “nəzər” salınır. Hətta Babilin yer üzündən silinməsi “erməni qələbəsi” kimi nəzərdən keçirilir. Fikir aydındır: indi də kimlər Ermənistana qarşıdırsa, yer üzündən silinəcək! Deməli, lap qədimdən erməni ideyasının “erməniçiliyində” öz xalqına sevgi yox, başqasına nifrət mərkəzi yer tutub. Erməni siyasi-ideoloji şüuru konstruktiv deyil, yaratmağı, dünya ilə bütünləşmiş şəkildə yanaşı yaşamağı anlamır. Əsas məqsəd başqasının bədbəxtliyi üzərində özünə xoşbəxtlik axtarmaqdan ibarətdir. Bunun nəticəsidir ki, min il ermənilərin öz dövləti olmadı, indi qondarılan isə formalaşmayıb. Babilin yer üzündən silinməsi bunun yanında yüngül bədbəxtçilikdir.

Ön sözdən də açıq hiss olunur ki, indiki erməni rəhbərliyi, ümumiyyətlə, dünya mədəniyyətinə, ermənilərə aid olmayan hər şeyə ya nifrət edir, ya da yuxarıdan aşağı baxır. Belə görünür ki, bütün dünya Ermənistanın təhlükəsizliyini təmin etməklə məşğul olmalıdır. Bunun üçün erməni mədəniyyətini hamının qorumalı olduğu halda, ermənilərin başqalarının mədəniyyətlərini mənimsəmək və ya dağıtmaq haqqı var. Ermənilər alçaq müharibə belə aparsa, bu, “azadlıq mübarizəsi” kimi qeyd-şərtsiz qəbul edilməlidir. Lakin onların təcavüzkarlığının qarşısını kimsə almaq istəsə, bu, artıq ya “soyqırımı”, ya da dünya mədəniyyətinə “təhlükə”dir. Bu səbəbdəndir ki, N.Paşinyan utanmadan deyir ki, “etnik cəhətdən ermənilərlə azərbaycanlılar uyğunsuzdurlar”! Dünya tarixində irqçilik, şovinizm və ultramillətçiliyin başqa belə nümunəsi yoxdur. Ermənistana havadarlıq edənlər, görəsən, heç utandılarmı?

Əslində, N.Paşinyan başqa məzmunda ön söz yaza bilməzdi. Çünki, birincisi, çox savadsız məxluqdur. İkincisi, bir neçə il öncə, “soyqırımı bizi xəstə edib”, “dünyaya düz baxa bilmirik” kimi fikirlər yazan bir mövcudat indi “məxməri sıçrayışla” bunun tam əksini deyir. Görünür, Rusiyada fəaliyyət göstərən başqa bir erməni şovinistin “nənəsinin üzünə tüpürməsindən” ehtiyat edir. Hər bir halda ön sözdən tam aydın olur ki, Ermənistanın “milli təhlükəsizlik strategiyası” adlanan “sənəd”i zibil qutusundan başqa bir yerə layiq deyil.

“Sənəd”in konkret müddəaları da bu qənaəti təsdiq edir. Bu bağlılıqda öncə onu deyək ki, ermənilər buraya şeir də salıblar. Həmin şeir də başqasının ölümünə sevinc hissi ilə doludur. Yuxarıda vurğuladığımız kimi, babillərin məhv edilməsinə qisasçı yanaşan birinin şeirini strateji adlandırdıqları “sənəd”ə daxil edirlərsə, deməli, keçmişdən gələn nifrət və qisasçılığın əsiridirlər. Reallıqda ermənilər gələcəyə deyil, keçmişlərindəki psixoloji qüsurlara, natamamlıqlara köklənirlər. Bu isə dövlətçiliyə fayda vermədiyi kimi, müasir tarixi mərhələdə baş verən müxtəlif prosesləri obyektiv qiymətləndirməyə də ciddi əngəl olacaq. Deməli, yaxın perspektivdə də Ermənistanın müstəqil dövlət kimi formalaşması imkanı minimumdur. Bu isə regionda qeyri-müəyyənliklərin, risklərin və təhdidlərin qalması ehtimalından xəbər verir. Yəni, əslində, həmin “sənəd” təhlükəsizlik deyil, təhlükəlilik və risklər sənədidir.

Bu məqam ondan qaynaqlanır ki, rəsmi İrəvan hələ də uzunmüddətli təhlükəsizliyi təmin edə biləcək faktorları, dəyərləri, ideoloji elementləri, sosial-siyasi trendləri müəyyən edə bilməyib. Konkret olaraq, “məxməri inqilab” adlanan və real məzmunu, məqsədi və meydana gəlmə üsulu erməni cəmiyyətində deyil, xaricdə müəyyən edilən hadisənin “strateji sənəd”də izahı bu baxımdan təsadüfi görünmür. Bu onu göstərir ki, Ermənistan siyasi şüuru və cəmiyyətin ümumi kreativlik potensialı böhran vəziyyətindədir. Erməni cəmiyyəti dövlətçilik baxımından layiqli olan dəyərlər yarada bilmir. İstənilən dövlətin tarixində bir fraqment olan hansısa inqilabi (hələ onun ermənilər üçün inqilab olduğu da məlum deyil) hadisəni uzunmüddətli “proqram xarakterli sənəd”ə salırlarsa, deməli, söhbət naşılardan və nə edəcəklərini dəqiq bilməyənlərdən gedir.

Hər bir inqilab gerçəklikdə konkret tarixi-siyasi, geosiyasi, hərbi, geoiqtisadi və sair şərtlərin müəyyən təsir konfiqurasiyasının nəticəsidir və həmin “tarixi an”da kəskinləşmiş ziddiyyətlərin həlli üsuludur. Bu lokal hadisəni strateji səviyyəyə qaldırıb, onu “əbədiləşdirmək” cəhdi xırda siyasi-ideoloji hesabların əsiri olmaqdan qaynaqlanır. N.Paşinyan bu prinsipial məsələdə də ağızdolusu danışdığı erməni xalqına yalan satır, hiylə gəlir, onun taleyini öz şəxsi marağına “bağlamağa” çalışır. O, hiss edir ki, bir siyasətçi və baş nazir kimi iflasa gedir və bunu cəmiyyət duyur. Xilas yolunu başqa hiylələrlə yanaşı, “strateji sənəd”də görür. Lakin hakimiyyət dəyişəndə, Ermənistanın milli təhlükəsizlik stra-

# yası”: qeyri-ciddi bir sənədin əsassız tezisləri

tegiyası da dəyişəcək. Bu isə nə millilikdir, nə də strategiya - naşı siyasətçinin adi və qaba söz oyunudur!

### Qonşularla münasibətlərin “strategiyası”: işğal, işğal, işğal...

Bunlar “strateji” sənəddə Ermənistanın Azərbaycan və Türkiyə ilə münasibətlərinin “izahı”nın gülünclüyü və bəsitliyi yanında toya gedəsidir. Əlbəttə, Azərbaycan və Türkiyə ittiham edilir, onların “təcavüzkarlığı açılır”, “soyqırımı” nağılına geniş yer verilir. Dağlıq Qarabağdakı terrorçu rejimin necə və hansı məqsədlə yaradıldığı haqqında, təbii ki, kəlmə də yoxdur. Orada lap qədimdən guya ermənilər yaşayıblar və Ermənistanla Dağlıq Qarabağdan aborigen azərbaycanlılar deportasiya olunmayıblar və s. Bir sözlə, Ermənistan havadarlarının ciddi yardımı ilə Azərbaycan torpaqlarını işğal etməyibmiş və lap qədimdən “Arsax xalqı” varmış.

2016-cı il Aprel döyüşləri və bu il Tovuz istiqamətində olan erməni hərbi təxribatı eyni məntiqlə təqdim edilir. Görünür, hər iki hadisədə erməni ordusunun aldığı ağır zərbələri reanimasiya etməyin başqa üsulunu tapa bilməyiblər.

Bu kimi nağılları küçələrdə erməni şovinistlərinə danışa bilərlər, ideoloji müstəvidə haradasa deyə bilərlər, hətta siyasi danışıqlarda belə “improvizələr” edə bilərlər, lakin normal dövlət üçün strateji əhəmiyyət kəsb edən bir sənədə bu kimi yalanları salmaq böyük gülünclükdür. Aydın görünür ki, burada siyasi qərəz və tarixi təhrif olunmuş şəkildə təqdim etmək meyli vardır. Ona görə ki, Dağlıq Qarabağ və ətrafındakı işğal olunmuş 7 rayon beynəlxalq birlik tərəfindən tarixi, rəsmi, siyasi və geosiyasi baxımdan Azərbaycan ərazisi kimi tanınıb. BMT-nin Təhlükəsizlik Şurasının 4 qətnaməsində isə konkret olaraq göstərilib ki, işğalçı Ermənistan silahlı qüvvələri (əslində havadarların hərbi gücü) Azərbaycanın zəbt edilmiş torpaqlarından qeyd-şərtsiz çıxmalıdırlar. Məsələnin hərbi yolla həll edilməsinin arzulanmaması isə daha insan qanı tökülməməsinin istənilməsidir. Bu adi, aydın və sadə həqiqəti danıb, “strateji” adlandırdıqları bir “sənəd”ə öz xülyalarını daxil edirlərsə, onlar tam xəstə adamlardır. Əlbəttə, bu “sənəd” nə reallaşa bilər, nə də uzun müddət qala bilər. Çox keçməz ki, ermənilərin özləri onu kənara qoyarlar.

Bunların fonunda “sənəd”də xalqların öz müqəddəratını təyinetmə hüququna istinad edirlər. Erməni siyasiləri, ümumiyyətlə, bu məsələdə o dərəcədə birtərəfli və səviyyəsiz mülahizələr irəli sürürlər ki, adi gözlə belə onu görmək mümkündür. Birincisi, çox asanlıqla sübut edilir ki, Dağlıq Qarabağda yalnız ermənilər yaşamayıblar və həm də onlar buraya Rusiya imperiyası tərəfindən köçürülmədirlər. İkincisi, əgər ermənilər Dağlıq Qarabağdan və ətraf rayonlardan 100 minlərlə azərbaycanlını deportasiya ediblərsə, hansı haqla öz müqəddəratını təyinetmə prinsipindən danışa bilərlər? Öz yurdlarından qovulmuş insanlar öz müqəddəratlarını necə təyin etməlidirlər? Bəlkə onların buna hüquqları çatmır? Üçüncüsü, ermənilər bir dəfə öz müqəddəratlarını Azərbaycan əraziləri hesabına təyin ediblər. Növbəti dəfə buna hüquqlarının olmadığı tam aydındır. Dördüncüsü, erməni məntiqinə görə, azərbaycanlılar Göyçədə, Zəngəzurda, İrəvanda öz müqəddəratlarını təyin etməlidirlər.

Əlbəttə, başqa məqamlardan da danışmaq olar. Ancaq aydındır ki, erməni siyasiləri bu məsələdə də tam riyakar və yalançı mövqedədirlər. Onu rəsmi sənəddə təsbit etmək onların siyasi şüurunun ciddi qüsurundan xəbər verir. Bundan başqa, Ermənistan rəhbərliyi faktiki olaraq beynəlxalq sənədlərdə və ATƏT-in Minsk qrupunun müəyyən etdiyi meyarların ifadə olunduğu sənədlərdə yer almış tezislərə qarşı çıxış edirlər. Onların hər birində sərhədlərin toxunulmazlığı və ərazi bütövlüyünün təmini ilk sırada qeyd olunur. Məsələn, Avropa İttifaqının bu il qəbul edilən sənədlərində xüsusi vurğulanıb ki, “Şərq Tərəfdaşlığı” Proqramına daxil olan ölkələrin sərhədlərinin toxunulmazlığı və ərazi bütövlüyünün təmini prioritetdir. Belə çıxır ki, Ermənistan beynəlxalq səviyyədə qəbul edilən rəsmi sənədləri saymır, hüquq normalarını çeynəyir və təcavüzkarlığına davam edir. İrəvan işğal faktını öz müqəddəratını təyinetmə prinsipi ilə açıqca örtbasdır etməyə çalışır. Bu şərtlərlə onun beynəlxalq təşkilatlarda üzvlüyü məsələsi nə dərəcədə doğrudur? Və həmişə humanizmdən dəm vuran böyük dövlətlər bu cür açıq-aşkar qanun pozuntusuna niyə səslərini çıxarmırlar? Burada geosiyasi mənası olan iki məsələni vurğulamaq lazımdır.

### Həmsədrlərin şıltaq çocuğu: ATƏT-n Minsk qrupu yenə susur...

Onlardan biri Ermənistanın birbaşa Minsk qrupu çərçivəsində aparılan danışıqları həmin “sənəd”lə sabotaj etməsi ilə bağlıdır. Bu da öz növbəsində həmsədrlərin ciddi tədbir görməsini zəruri edir. Əks halda, danışıqlar ya imitasiya müstəvisinə keçməlidir, ya da dayandırılmalıdır. Azərbaycan Prezidenti dəfələrlə vurğulayıb ki, rəsmi Bakı danışıqlarda imitasiyanı qətiyyətlə rədd edir. Deməli, ya ermənilərin başına ağıl qoymalıdırlar, ya da Azərbaycan Ordusu hərbi əməliyyatlar keçirməlidir.

İkinci məqam sənəddə Ermənistanın başqa dövlətin əraziləri ilə bağlı şərhləri öz strateji məqsədləri kontekstində verməsi ilə əlaqəlidir. Bu, birbaşa təcavüz və beynəlxalq qanunları tapdalamaq deməkdir. Hətta Azərbaycanın mərkəzində yerləşən Gəncəni öz bildikləri kimi adlandırıb, oraya iddianı ortaya qoymağa çalışmaları, Naxçıvan haqqında iddialı fikirlər işlətmələri göstərir ki, Ermənistan hələ sülh və barışdan çox uzaqdır. Onun dərsi verilməlidir. Başqa yol qalmır.

Əslində, rəsmi İrəvanın bu cür qeyri-konstruktiv, aqressiv və orta əsr məntiqi ilə özünün milli təhlükəsizliyinə yanaşacağı gözlənilən idi. Çünki N.Paşinyanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin artıq müəyyən olunmuş formatını ağılsız və əsassız qaydada dəyişmək cəhdləri çox məqamlardan xəbər verir.

Hazırkı Ermənistan rəhbərliyi “Qarabağ Ermənistandır və nöqtə” və ya “yeni torpaqlar naminə yeni müharibə” kimi bəyanatlar verməklə göstərirlər ki, öz işğalçı davranışlarından imtina etmək fikrində deyillər. Hətta illərdir formalaşmış baza prinsipləri belə məsuliyyətsizcəsinə dəyişmək həyasızlığından belə qalmırlar. Hətta Rusiyanın xarici işlər naziri Sergey Lavrov açıq deyir ki, artıq oturuşmuş danışıqlar formatının dəyişdirilməsi mümkün deyildir. Buna rəğmən, rəsmi İrəvanın inadkarlığını nə ilə izah etmək olar? Rəsmi İrəvan daha da qabağa gedərək strateji adlandırdığı bir “sənəd”ə öz sərsəm tezislərini daxil etməkdən çəkinmir. Geosiyasi baxımdan maraqlı məqamlardan biri bundan ibarətdir.

Hamıya aydındır ki, dövlət olaraq öz gücünə Ermənistanın bu cür davranmasına heç bir əsas yoxdur. Ermənistan dünyanın ən zəif dövləti gücünə sahib olan ölkələrdəndir. Deməli, rəsmi İrəvanın şıltaqlığı xaricdən olan dəstəkdən qaynaqlanır. Buraya ilk növbədə erməni diasporu daxildir. Erməni diasporunu da təsirli edən böyük havadar dövlətlərin öz geosiyasi maraqlarına uyğun müəyyən ölkələrdən daha güclülərə qarşı istifadə etmək niyyətidir.

Ermənistanı, sirr deyil ki, ABŞ, Avropa, Latın Amerikasının bir sıra ölkələri və Rusiya açıq dəstəkləyir və havadarlıq edirlər. İran isə dolayısı ilə bir sıra hallarda gizli olaraq İrəvana kömək edir. Bu o deməkdir ki, Ermənistanın hazırkı rəhbərliyinin özünü barışmaz və təxribatçı aparmasının başlıca səbəbi, ona kənardan olan dəstəklə bağlıdır. Konkret olaraq, N.Paşinyana “Soros fondu” da ciddi yardım edir. Dünya KİV-ləri yazır ki, indi Ermənistanda hakimiyyətdə olanlar “Sorosun uşaqlarıdırlar”.

### Məsuliyyət hissi: beynəlxalq təşkilatlar və vasitəçilər nə düşünürlər?

Belə çıxır ki, rəsmi İrəvanın təhlükəsizliklə bağlı öz “strateji sənədində” qondarma bir qurumun qeyd-şərtsiz və sərhədsiz olaraq öz müqəddəratını təyinetmə hüququnun tanınmasını tələb etməsi və hətta terrorçu yığınını “azad ölkə” qismində tanıdığını bildirməsi təsadüfi deyil. Bu halda geosiyasi qapalı dairə alınır: münaqişəni həll etməli olan qüvvələr real olaraq təcavüzkara dəstək verirlər və bununla da faktiki olaraq işğalı qanuniləşdirməyə çalışırlar. Bu qapalı dairənin qısa məzmunu da rəsmi İrəvanın təhlükəsizliklə ilgili “strateji sənədi”ndə öz ifadəsini tapır.

Bunlar onu göstərir ki, ATƏT-in Minsk qrupunun həmsədrləri məsələ ilə bağlı ümumi sözlərdən imtina edib, Ermənistan rəhbərliyinə ciddi xəbərdarlıq etməli və sonrakı addımda ona qarşı konkret addımlar atmalıdır. Xüsusilə “sənəd”də “danışıqların əsas məqsədinin müharibənin nəticələrinin qorunub saxlanması olmalıdır” kimi militarist bir fikrin yer almasına Minsk qrupu dərhal reaksiya verməlidir. Çünki bu, ilk növbədə, Ermənistanın işğalçılığına haqq qazandırmağa cəhddir. Halbuki bütün beynəlxalq sənədlərdə münaqişənin həlli Ermənistanın zəbt etdiyi Azərbaycan torpaqlarını tərk etməsi ilə sıx bağlı təqdim edilir.

Minsk qrupunun özünün də müəyyən etdiyi prinsiplərdə danışıqların məqsədinin müharibənin nəticələrini qorumaqla bağlı olması haqqında zərrə qədər də fikir yoxdur və ola da bilməz. Əslində, bu barədə rəsmi saydığı “sənəd”də konkret müddəa yazmaqla Ermənistan özünün işğalçı mahiyyətini və məqsədinin bu işğalın nəticələrinə hüquqi don geyindirməkdən ibarət olduğunu nümayiş etdirmiş olur. Çünki müharibə vasitəsilə qonşu dövlətin ərazilərini ələ keçirməkdən dəm vurursa, deməli, işğalçıdır. Digər tərəfdən, əgər vasitəçilər də əvvəlcədən nəticənin münaqişənin həllinin ədalətli olması deyil, erməni tərəfinin maraqlarının təmin edilməsindən ibarət olduğunu düşünürsə, onda hansı real vasitəçilikdən danışmaq olar? Bu o deməkdir ki, ermənilər həmsədrlərin ədalətli deyil, ermənipərəst olduqlarına əmindirlər.

Avtomatik olaraq Minsk qrupunun səmərəsiz və hətta zərərli fəaliyyət göstərdiyi qənaəti alınır. Bunu həmsədrlər təkzib etməyə borcludurlar. Yoxsa yenə də “xarici işlər nazirləri görüşəcək” kimi sözlərlə baş aldatmaqdan bir nəticə hasil olmayacaq. Azərbaycanda rus mədəniyyəti və dilinin vəziyyətindən razı qaldıqlarını tez-tez dilə gətirən Rusiya rəhbərliyi də şübhəsiz ki, bu vəziyyəti anlayır. Bu dünyada sonsuz heç nə yoxdur...

Nəhayət, “sənəd”də Ermənistan rəhbərliyinin demokratiya və insan haqlarından dəm vurması ironiyadan başqa bir hiss yaratmır. Lakin bu da təsadüfi deyil. İnsan haqları ilə “məşğul” olan beynəlxalq təşkilatlar erməni radikal şovinistlərinə, terrorçu xislətli siyasilərə əməlli-başlı meydan veriblər. Onlar yalan hesabatları və müsəlman ölkələrinə qarşı qərəzli mövqeləri ilə Paşinyan kimilərinin demokratik obrazını formalaşdırmağa çalışırlar.

“Soros fondu”nun da bu sahədə təcrübəsi az deyil. Məhz bu səbəbdəndir ki, uzun illərdir milyonlarla insanı öz yurdundan vəhşicəsinə deportasiya edən, çoxlu sayda qadın, qoca və uşağı əsir saxlayıb, onların ləyaqətlərini alçaldaraq təhqir edən, dinc sakinlərin həyatına qəsd edən, çox alçaq üsullarla informasiya savaşı aparan Ermənistan siyasi və hərbi dairələri hələ də “demokrat-dır”lar və insan haqlarından utanmadan danışa bilirlər.

Lakin başqa bir həqiqət də var. Tarix belə şeyləri bağışlamır və ört-basdır etmir. Azərbaycan müstəqil dövlət kimi sürətlə güclənir. İndi onun real dövləti gücü Ermənistandan qat-qat yüksəkdir. Bu proses davam edəcək. Və erməni təcavüzkarları, terrorçuları, radikalları ədalət məhkəməsi qarşısında cavab verməli olacaqlar. Onda dünyanın böyük dövlətləri, siyasətçiləri, hüquq müdafiəçiləri, insan haqlarından dəm vuranlar hansı vəhşilərə arxa olduqlarına çox utanacaqlar (əgər üzləri varsa!). O gün mütləq gələlidir. Əks halda, dünyada mərhəmət, humanizm və ədalətin heç bir əhəmiyyəti qalmayacaq!

*Kamal Adıgözəlov*
*Newtimes.az*

“Nar” abunəçilərinin nəzərinə!
08.09.2020-ci il tarixindən etibarən, “Yerlim” tarifinə yeni qoşulacaq abunəçilər üçün dəyişikliklər ediləcək”.

# İnsan alveri ümumbəşəri problemdir

***Bu gün baş verən hadisələrə əsaslanaraq demək olar, ən narahatedici problem insan alveridir. Tarixən mövcud olan və bu gündə aktuallığını qoruyub, saxlayan insan alveri probleminin aradan qaldırılması, ən azı minimuma endirilməsi üçün dövlətlər cəhdlər göstərsə də, buna müvəffəq ola bilməyiblər. Çünki, bu cinayətin başında duranlar öz cinayətlərini tərəf müqabillərinə çevrilən insan alveri qurbanları ilə gizli şəkildə həyata keçirilər. Bu da, hüquq -mühafizə orqanlarına cinayətkarların aşkarlanmasında ciddi problemlər yaradır. Dünya ölkələrinin açıqladığı rəsmi məlumatlara görə, insan alveri qurbanlarının sayı artmaqdadır.***




ABŞ Dövlət Departamentinin bu sahə üzrə illik hesabatında göstərilir ki, hər il dünya üzrə 800 mindən artıq insan bu qanunsuz ticarət növünün qurbanı olur ki, onların da 80 faizi qadınlar və gənc qızlardır. Cinayətkarlar insan alverindən hər il 9 milyard gəlir edirlər. Bu baxımdan qeyd edilir ki, insan alveri gəlir mənbəyinə görə, silah və narkotik ticarətdən sonra üçüncü sıra da dayanır. Təhlillər göstərir ki, insan alveri tacirləri öz qurbanlarını daha çox savadsız, kasıb, dünyagörüşü dar olan, həyat yoldaşından boşanmış, ailəsində problemi olan, maddi sıxıntı içərisində yaşayan, iş tapa bilməyən, qalmağa yeri olmayan qadınlar düşürlər. Həmdə, sübuta yetirilən fakt ondan ibarətdir ki, qızları öz torlarına salanlar əsasən qadınlar olurlar. Hansı ki, o qadınların ilkin həyatları fahişəliklə keçib və öz sıralarına başqalarını da cəlb etməklə, gəlir əldə etməyə çalışırlar.

Diqqətçəkən məqam ondan ibarətdir ki, müxtəlif ölkələrə cinsi istismar üçün aparılan qadınlar sonradan öldürülürlər. Bu halda onları ailələri belə axtarmır və hüquq-mühafizə orqanları da ölüm halına ciddi yanaşmır. Bu kimi faktlar minlərlədir. Məhz bu kimi faktlara istisna edən, Beynəlxalq Miqrasiya Təşkilatının məlumatına görə, il ərzində ayrı-ayrı ölkələrdə bu sahədə çalışan minlərlə qadın yoxa çıxır. Onlar ya ölkəni dəyişir, ya da fiziki cəhətdən məhv edilirlər. Əksəriyyəti gənc olduğundan həmin qurbanlar bir çox hallarda öldürülərək orqanları transplantasiya üçün istifadə edilir.

### İnsan alverinin əsas qurbanları qadınlardır

Azərbaycanda da insan alverinin əsas qurbanları qızlar və qadınlardır. Onlar əsasən Türkiyə, Pakistan, Hindistan, Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ), Rusiya və İrana aparılaraq istismar olunurlar. Ölkəmizdə insan alverinə qarşı mübarizə tədbirləri çərçivəsində qətiyyətli addımlar atılır. Hələ 2005-ci il iyunun 28-də "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. 30 sentyabr 2005-ci il tarixli Azərbaycan Respublikasının Qanunu ilə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə İnsan alveri - 144-1-ci maddə ilə yanaşı, Məcburi əmək - 144-2 və İnsan alverindən zərərçəkmiş şəxs haqqında konfidensial məlumatları yayma - 316-1-ci maddələr əlavə edilmişdir. Bu maddələr Azərbaycan Respublikasının yeni Cinayət Məcəlləsində "Şəxsiyyət əleyhinə olan cinayətlər" bölməsində, "Şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə olan cinayətlər" adlanan XIX fəslə daxil edilmişdir.

BMT-də 2000-ci il dekabrın 12-də imzalanmış "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı" konvensiyası, onu tamamlayan "İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması" protokolu və 20 sentyabr 2002-ci ildə qəbul edilmiş "İnsan alverinin qarşısının alınması və ona qarşı mübarizə haqqında" Brüssel bəyannaməsi 2003-cü il mayın 13-də Azərbaycan Respublikasının qanunu ilə təsdiq edilib.

Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 6 may 2004-cü il də "Azərbaycan Respublikasında İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Fəaliyyət Planı" təsdiqlənib. Daxili işlər nazirinin 19.05.2004-cü il tarixli əmri ilə Daxili İşlər Nazirliyində İnsan Alverinə qarşı Mübarizə İdarəsi (İAQMİ) və bu planın həyata keçirilməsinə nəzarət üçün milli koordinator postu yaradılıb. Milli fəaliyyət planına uyğun olaraq, insan alveri cinayətlərinin qarşısının alınması məqsədilə "Qaynar xətt" xidməti (tel: 152 və 562-21-12) üçün ayrılmış mənzil DİN-in İsan Alverinə Qarşı Mübarizə İdarəsinin istifadəsinə verilib. Prezidentinin 6 fevral 2009-cu il tarixli sərəncamı ilə 2009-2013-cü illəri əhatə edən yeni Milli Fəaliyyət Proqramı qəbul edilib. Ardınca isə Nazirlər Kabineti tərəfindən insan alveri qurbanları ilə bağlı "Milli istiqamətləndirmə mexanizmi" və "İnsan alveri qurbanlarının müəyyən edilməsi qaydaları" təsdiq edilib. Bundan əlavə Cinayət Məcəlləsində də cinayətkarlığın bu növü ilə mübarizəni nizamlayan müvafiq maddələr, cinayətin potensial subyektləri hesab edilən uşaq və qadınların, eləcə də kişilərin hüquq və azadlıqlarının müdafiəsinə yönəlmiş bir sıra normativ-hüquqi aktlar var.

### İnsan alverinin qarşısının alınması üçün sərt tədbirlər görməkdədir

Ekspertlərin qeyd etdiyi və bizimdə apardığımız araşdırmalar zamanı gəldiyimiz qənaət ondan ibarətdir ki, insan alveri problemi üzrə Azərbaycan həm mənbə, həm təyinat, həm də tranzit ölkəsi rolunu oynayır. Dövlətimiz tərəfindən yuxarıda qeyd edildiyi kimi, insan alverinin qarşısının alınması üçün sərt tədbirlər görməkdədir. Məhz ölkəmizdə bu istiqamətində qanunvericilik bazasının möhkəmlənməsi və Prezident sərəncamlarının imzalanması bir sıra nüfuzlu beynəlxalq təşkilatlar və aparıcı dövlətlər tərəfindən məmnunluq yaradıb. ABŞ Dövlət Departamentinin 2018-ci il də açıqladığı hesabatında ölkəmizdə insan alveri ilə mübarizə çərçivəsində parlament tərəfindən qanunvericiliyin təkmilləşdirilməsi, əhali arasında maarifləndirmə tədbirləri keçirilməsi, insan alverinin və məcburi əməyin qarşısının alınması, qurbanların müdafiəsi, onlara yardım göstərilməsi sahələrində inkişafın əldə edilməsi və sair məsələlər müsbət qiymətləndirilib və bir ıra ölkələrə nümunə olaraq göstərilib.

Məlumat üçün qeyd etmək lazımdır ki, ölkəmizdə həyata keçirilmiş əməliyyat-profilaktik tədbirlərlə, 2015-ci illə müqayisədə, 2019-cu ildə 24 faiz çox və ya 122 insan alveri, 12 məcburi əmək, həmçinin insan alveri məqsədilə sənədlərlə qanunsuz hərəkətlərə dair 14 fakt aşkarlanmışdır. Bu əməllərə görə 38 şəxs (33 qadın, 5 kişi) cinayət məsuliyyətinə cəlb edilmiş, 12 cinayətkar qrup və 1 mütəşəkkil dəstə zərərsizləşdirilmişdir. Müvafiq cinayətlərə görə 26 şəxs məhkəmə məsuliyyətinə verilmişdir ki, onlardan da 18 nəfəri 5 ildən 10 ilədək müddətə azadlıqdan məhrum olunmuşdur. Beynəlxalq axtarışa elan edilmiş təqsirləndirilən şəxslərdən 9-nun yeri İnterpol xətti ilə müəyyən olunaraq istintaq orqanlarına təhvil verilmiş və hazırda 22 nəfərin axtarışı davam etdirilir. Müəyyən olunmuş 63 qurbandan (57 qadın, 6 kişi) 38-i Türkiyə Respublikasına, 8-i Birləşmiş Ərəb Əmirliklərinə, 3-ü Rusiya Federasiyasına aparılmış, 14 nəfər, o cümlədən 7 əcnəbi ölkə daxilində istismara məruz qalmışdır (5 Özbəkistan, 1 Türkmənistan və 1 Ukrayna vətəndaşı). Qurbanlardan 51-i sığınacağa yerləşdirilmiş, hər birinə zəruri yardımlar edilmiş və təhlükəsizliyi təmin olunmuşdur. Bütövlükdə 63 qurbana birdəfəlik müavinət verilmiş, 42-nə Kömək Fondu tərəfindən maddi yardım göstərilmiş, 22-i işlə təmin edilmiş, 31-i peşə kursuna göndərilmişdir. Görülmüş tədbirlərlə 31 qurban ailəsinə qayıtmış, sosial xidmətlə əhatə olunması üçün 51 qurban qeyri-hökumət təşkilatlarına istiqamətləndirilmişdir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında İnsan alveri qurbanları üçün Yardım Mərkəzi tərəfindən 56 qurbana hüquqi və psixoloji yardım, 16 qurbana Səhiyyə Nazirliyinin müəssisələrində xüsusi tibbi xidmət göstərilmiş, daha 13-ü şəxsiyyəti təsdiq edən sənədlərlə təmin olunmuşdur.

### Kişilərdə insan alveri qurbanına çevrilirlər

İnsan alveri qurbanları üçün Yardım Mərkəzinin açıqladığı məlumatda o da bildirilir ki, insan alveri qurbanların himayəsində olan 29 azyaşlı müxtəlif təhsil proqramlarına cəlb edilmiş, 2 uşağın atalığı müəyyən edilərək alimentlə təmin olunmasında, 11-nə doğum şəhadətnaməsinin alınmasında köməklik göstərilmiş, 7-i müvəqqəti sığınacağa yerləşdirilmişdir. Qurbanların təkcə sosial reabilitasiyasına, o cümlədən sığınacaqda saxlanılmasına və onlara birdəfəlik müavinətlərin verilməsinə Daxili İşlər Nazirliyinin büdcəsindən 165 min manat ayrılmış və bu məbləğ tam şəkildə təyinatı üzrə istifadə olunmuşdur.

Araşdırmalar zamanı üzə çıxarılan faktlardan biri də, budur ki, yalnız qadınlar deyil, insan alveri qurbanları, həm də, uşaqlar və kişilərdə insan alveri qurbanına çevrilirlər. Kişiləri şirnikləndirici vədlərlə aldadıb, xaricə aparılır və orada onların sənədlərini əllərindən alıb, ucuz işçi qüvvəsi kimi müxtəlif əmək müəssələrində istismar edirlər. Uşaqlar isə dilənçiliyə və başqa qanunsuz hərəkətlərə məcbur edilirlər. Xüsusən də küçə uşaqları daha böyük təhlükə qarşısındadırlar.

Göründüyü kimi ictimai təhlükəli əməl olmaqla təkcə cinayət hüquq pozuntusu deyil, həmçinin ümumbəşəri problemdir. Bu problemin həlli üçün hər bir ölkənin hər bir vətəndaşı ayıq-sayıq olmalı, vətəndaş məsuliyyətini dərk etməklə, ümumbəşəri bəlaya qarşı birgə mübarizə aparılmalıdır. Yalnız birlik və bərabərliklə bu ağrılı problemi qismən də olsa aradan qaldırmaq olar.

**İ.ƏLİYEV**

## DİN-dən yolu bağlayan qadınlarla bağlı açıqlama



Daxili İşlər Nazirliyi (DİN) paytaxt ərazisində bir qrup qadının yolu bağlamağa cəhd etməsi ilə bağlı yayılan görüntülərə açıqlama verib. DİN-in Mətbuat Xidmətindən SİA-ya verilən məlumata görə, avqustun 26-da Yasamal rayonu ərazisində hərəkətin intensiv olduğu prospektlərin birində bir qrup qadın avtomobil yoluna çıxaraq təhlükəli vəziyyət yaradıblar. Bildirilib ki, ərazidə xidmət edən polis əməkdaşları tərəfindən dərhal həmin cəhdin qarşısı alınıb: "Həmin şəxslərin ərazidən uzaqlaşdırılması təmin olunub. Qeyd olunan hərəkətlərə cəhd edən şəxslərlə profilaktik söhbətlər aparılmaqla bu əməlin təhlükəli olması onların diqqətinə çatdırılıb".

Avqustun 26-da bir qrup qadın Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin ("Qaçqınkom") binası önündə yolu bağlamağa cəhd ediblər. Bununla bağlı sosial şəbəkələrdə görüntülər yayılıb. Ərazidə olan polis əməkdaşlarının həmin şəxsləri oradan uzaqlaşdırarkən qadınlardan birini itələyərək asfalta yıxdığı görüntülərdə əks olunub. DİN qadının yıxılması faktına münasibət bildirməyib.

# “Təxribatlar göstərir ki, ermənilər mənfur niyyətlərindən əl çəkmirlər”

***Ermənilər tarixən terror, təxribat törətməklə, qətllər etməklə, başqa xalqların, millətlərin nümayəndələrini işgəncələrə məruz qoymaqla, ad çıxarıblar və tarixən Azərbaycan xalqının, türklərin başına gətirdikləri müsibətlər hər bir kəsə, bütün dünyaya məlumdur. Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri Tahir Rzayev deyib. Millət vəkili vurğulayıb ki, son dövrlərdə Azərbaycana qarşı aparılan təcavuz də bunu deməyə əsas verir və son təxribatlar bir daha göstərir ki, ermənilər bu mənfur, çirkin əməllərindən əl çəkmirlər, heç əl çəkmək fikrində də deyillər.***



“Goranboy sərhədd zonasında Qurgen Alaverdiyanın təxribat törətmək cəhdi bir daha bunu sübut elədi. Sözsüz ki, bu təxribat cəhdləri dəfələrlə olub. Hələ 2014-cü ildə erməni kəşfiyatçısı Baqdasaryan Arsen Eduardoviçin sərhədd zonasını keçməsi cəhdinin, 2018-ci ildə Karen Qazaryanın təxribat törətmək, sərhəddə ixtişaş yaratmaq cəhdinin, azərbaycanlıları girov götürmək cəhdlərinin Azərbaycan Ordusunun igid əsgərləri tərəfindən qarşısı alınıb və həmin şəxslər öz layiqli cəzalarını alıblar. Bu dəfə də avqustun 23-də Goranboy ərazisində Qurgen Alaverdiyanın rəhbərliyi ilə erməni diversiya qrupu yeni bir təxribat cəhdi törətməyə səy göstərib, ancaq yenə də erməni tərəfi ciddi itgi verib və diversiya qrupunun rəhbəri əsir götürülüb, tutulub. Bilirsiniz, artıq faktlar sübut edir ki, bu insan Kəlbəcərdə müəyyən qruplaşmalar yaratmaqla, adamlara işgəncələr verməklə, yeni Azərbaycan torpaqlarının işğal olunmasında fəal iştirak etməklə, silah əldə etmək və həmin silahlardan Azərbaycana qarşı istifadə eləmək məqsədi ilə daimi fəaliyyət göstərib. Bütün bu faktlar Ermənistanın təcavüzkar bir dövlət olduğunu bir daha sübuta yetirir. Belə bir hadisənin Ermənistanın müdafiə nazirinin xaricə səfəri zamanı baş verməsi də təsadüfi deyil və şübhəlidir. Çünki, bununla Ermənistan rəhbərliyi iyul hadisələri təxribatı zamanı aldıqları ağır zərbənin əvəzini çıxmaq fikrindədirlər. Tovuz ərazisində bir daha onlar təxribat eləməyə cəhd elədilər, lakin Azərbaycan Silahlı Qüvvələri tərəfindən layiqli cavablarını aldılar və külli miqdarda itgi verdilər. İtgi verdilər və bu dəfə də bu təxribatın törədilməsi ilə onlar həmin itgilərin əvəzini çıxmaq, Azərbaycan Ordusunun əsgərlərinə, zabitlərinə bir ziyan vurmaq, onları qətlə yetirmək məqsədi daşıyırdılar. Ancaq, çox sevindirici haldır ki, Azərbaycan Ordusunun əsgərləri sayıqdırlar, sayıqlıq göstərdilər və bu dəfə də təxribatın qarşısı vaxtında alındı.

İndi Ermənistan tərəfi, Ermənistanın bir çox hakim dairələri beynəlxalq təşkilatlara müraciət edirlər ki, guya Qurgen Alaverdiyan azaraq Azərbaycan tərəfə keçib və onun tutulması, onun həbs olunması qanuna uyğun deyil, müəyyən beynəlxalq normalara ziddir. Ancaq bunun heç bir əsası yoxdur. Artıq bizim Kəlbəcərli sakinlərimiz, Dilqəm Əsgərov və Şahbaz Quliyev haqqında görülən tədbirlər bütün dünyaya məlumdur ki, onlar öz ata-baba torpağına keçib öz valideyinlərinin məzarını ziyarət edərkən tutulublar və onlarda heç bir silah, heç bir təxribat xarakterli məlumat aşkar olunmamışdırsa da onlara ermənilər ağır işgəncələr verirlər və onlar bu gün də Ermənistan tərəfindən həbsdə saxlanılırlar.

Bu gün erməni tərəfi bizi çaşdırmaq, fikri tamam başqa səmtə yönəltmək arzusundadırlar ki, belə hallar guya sərhədd zonasında ola bilər. Ancaq, əldə olunmuş məlumatlar, Qurgen Alaverdiyanın üzərində olan silah, hərbi sursat sübut edir ki, bu, təxribat xarakterli məlumatlar yaymaq, Azərbaycan Ordusunun vəziyyətini öyrənmək, onun müəyyən qaydada hərbi sirlərini əldə etmək üçün təşkil edilib və diversiya olaraq dəyərləndirilir. Bu faktlar bir daha göstərir ki, Ermənistan Dağlıq Qarabağ münaqişəsini dinc yolla həll etmək niyyətində deyil. Son hadisələr bir daha onu deməyə əsas verir ki, Ermənistan təcavüzkar bir dövlətdir və o təcavüzkarlığını da davam elətdirir. İstər BMT qətnamələri olsun, istər bir çox beynəlxalq təşkilatların Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı qəbul etdikləri qərarlar olsun, Ermənistan tərəfi heç bir norma və prinsplərə məhəl qoymur, etinasızlıq göstərir. Əlbəttə ki, burada Azərbaycan tərəfi öz sözünü deyir, Azərbaycanın dövlət başçısı, Ali Baş Komandan dəfələrlə xatırladıb ki, Azərbaycanda ikinci bir Ermənistan dövlətinin yaradılmasına heç cür imkan verilməyəcək, Qarabağ Azərbaycan torpağıdır və Azərbaycan torpağı olaraq da qalacaq. Bunun üçün heç bir güzəşt ola bilməz və Ermənistan rəhbərliyi ağlını başına yığmalıdır, təcavüzə son qoymalıdırlar. Lakin, təəssüflər olsun ki, bu təcavüz davam elətdirilir və bizi təəccübləndirən, bizi hiddətləndirən beynəlxalq təşkilatların, xüsusilə, ATƏT-in Minsk Qrupunun belə hallara qarşı laqeyid münasibət göstərməsidir. Çünki, bu qurum bilavasitə bu məsələ ilə məşğul olur və elə bilirəm ki, belə faktlara obyektiv qiymət verilmlidir və təcavüzkarın yerində oturdulması, onun öz səhvlərini etiraf etməsi üçün lazımi tədbir görməlidir. Azərbaycan tərəfi bu gün də hadisələrə müsbət münasibətdədir. Azərbaycan tərəfi bu gün də münaqişənin dinc yolla həll olunmasının tərəfdarıdır. Ancaq çox təəssüflər olsun ki, Ermənistan rəhbərliyində olan millətçi insanlar bu məsələlərin həllində yanlış mövqe tuturlar və bu gün də Azərbaycana qarşı təcavüzü davam etdirmək siyasəti yeridirlər.

Sözsüz ki, Azərbaycan Ordusu qüvvətlidir, qüdrətlidir. Ölkə rəhbərinin dediyi kimi, biz hər bir təxribatın, hər bir hücumun qarşısını almaq iqtidarındayıq. Azərbaycan Ordusu hər bir an Ermənistan ordusunu, Ermənistan silahlı qüvvələrini yerində oturtmağa qadirdir. Elə bilirəm ki, bu hadisələrin baş verməsinə beynəlxalq təşkilatlar öz münasibətlərini bildirəcəklər”, deyə Tahir Rzayev bildirib.

***İnam Hacıyev***

# “Məhərrəm ayında bəzi dini ritualların keçirilməsi karantin tələblərə ziddir”

“Məhərrəmlik ayı olduğundan insanlar müəyyən dini ritualları həyata keçirmək istəyə bilər, lakin, bu ilk növbədə karantin qaydalarının pozulması deməkdir və qoyulan tələblərə ziddir. Tarix boyu dünyada Həcc ziyarəti bir-neçə təxirə salınıb. Bu da məhz hər əsirdə pandemiya səbəbindən baş verib. Bu faktları informasiya bolluğu yaşanan bir dünyada savadlı, dünyagörüşlü insanlara sübut etməyə ehtiyac yoxdur”. Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin Səhiyyə Komitəsinin üzvü olan deputatı İlham Məmmədov pandemiya dövründə bütün kütləvi tədbirlərin, o cümlədən, indiki dövrdə kütləvi dini tədbirlərin keçirilməsinin yoluxma sayının artmasına ciddi şəkildə təsir edə biləcəyindən danışarkən deyib.



Onun sözlərinə görə, indiki dövrdə qaydalara riayət etməyin labüdlüyü kütləvi informasiya və digər vasitələrlə təkrar-təkrar əhalinin nəzərinə çatdırmalıdır, insanların maarifləndirilməsi, bu sahədə bilgi əldə etməsi, dünyanın müxtəlif ölkələrində bu proseslərlə bağlı hadisələrin ağır fəsadlarının olması barədə məlumat vermək lazımdır: “İnsanlar pandemiyanın hələ də davam etdiyi bir dövrdə qaydalara riayət etməyə çalışmalıdırlar. Bir şeyi nəzərdən qaçırmayaq ki, koronavirus hələ yox olmayıb. Dünyada bununla əlaqədar verilən statistik rəqəmlər, eyni zamanda, televiziya və internet vasitəsilə yayılan məlumat və görüntülər bunu çox dəqiq əks etdirir. İnsanların kütləvi şəkildə toplaşdığı yerlər adətən qapalı məkanlar olur. Təbii ki, müəyyən bir vaxtdan sonra havalar da soyuyacaq, bununla əlaqədar mövsümü xəstəliklər də ortaya çıxacaq, insanların sıx təmasda olduğu yerlərdə virusun çox asanlıqla hava damcı yolu ilə yayılmasına şərait yaradacaq. Ona görə də, istər-istəməz əhalinin sıx toplaşdığı yerlərdə xəstəliyin yayılma ehtimalı çox yüksəkdir. Dünən mətbuatda Türkiyənin Bursa vilayətində 150 nəfərin iştirak etdiyi toyda 47 nəfərin COVID-19-a yoluxduğunu oxudum. Hazırda, 150 nəfər toyda iştirak etmiş şəxslər karantinə alınıblar. Sizcə, bu lazım idimi? Bu, həm də toyu təşkil edilən gənclərin psixoloji və mənəvi sarsıntısına da səbəb oldu. Eyni zamanda, yas mərasimlərində də hər dəfə COVID-19-a yoluxma hallarının yüksək sayda qeydə alındığını oxuyuruq”.

Millət vəkili vurğulayıb ki, Məhərrəmlik ayı olduğundan insanlar müəyyən dini ritualları həyata keçirmək istəyə bilər, lakin, bu ilk növbədə karantin qaydalarının pozulması deməkdir və qoyulan tələblərə ziddir: “Tarix boyu dünyada Həcc ziyarəti bir-neçə təxirə salınıb. Bu da məhz hər əsirdə pandemiya səbəbindən baş verib. Bu faktları informasiya bolluğu yaşanan bir dünyada savadlı, dünyagörüşlü insanlara sübut etməyə ehtiyac yoxdur. Mən hesab edirəm ki, şüurlu yanaşmaq lazımdır. Kütləvi tədbirlərin keçirildiyi yerlərdə yoluxma ehtimalı çox olur. Bu gün nəzərə alsaq ki, koronavirus hələ də bizimlədir, hələ davam edir və bunun sonu hələ ki, görünmür, sadəcə insanlar tərəfindən sadə qaydalara əməl olunmalıdır”.

İlham Məmmədov qeyd edib ki, ölkəmizdə görülən tədbirlər öz effektiv nəticəsini verir və bu sərt karantin rejimindən sonra yumşalmalara gedilərək insanların müəyyən fəaliyyətlərini icra etməsi, normal həyatlarına davam etdirmələri üçün hər cürə şərait yaradılıb: “SMS icazə sistemi ləğv olundu. Lakin insanlar bundan sui-istifadə etməməlidirlər. İnsanlar indi də məsafəni gözləyib, tibbi maskadan istifadə etməlidirlər. Bunu hər dəfə demək lazım deyil. Normal həyatımıza qayıtmağımız üçün qoyulan qaydalara əməl etməliyik. Bunun üçün hər bir vətəndaşın məsuliyyəti lazımdır. Bu qədər çox informasiyanın qarşısında bunu insanlara sübut etməyin labüdlüyünə də artıq ehtiyac qalmayıb. Hər şey göz qabağındadır”.

***Nigar Məmmədova***

## ABŞ və Rusiya hərbçiləri Suriyada toqquşdu!



Suriyada Rusiya hərbi polisi ilə ABŞ-ın hərbçiləri arasındakı doqquşmada dörd ABŞ hərbçisi yüngül xəsarət alıb. Bu barədə “ABC News” telekanalı xəbər yayıb. Məlumatda bildirilir ki, hadisə Rusiyaya məxsus zirehli döyüş maşınları (BTR) ABŞ hərbi maşınlarını itələyib yoldan çıxararkən baş verib. Hadisə çərşənbə axşamı səhər ölkənin şimal-şərqində Derik şəhəri yaxınlığında baş verib. ABŞ Milli Təhlükəsizlik Şurasından verilən xəbərə görə, beynəlxalq koalisiya patrulu zamanı Rusiyanın bir zirehli döyüş maşını Amerika zirehli avtomobilinə çırpılıb. Avqustun 26-da “Rus Vesna.ru” saytında hadisənin baş verdiyini göstərən video paylaşılıb.

Həmin videoda üzərində Rusiya bayraqları olan zirehli maşınların Amerikaya məxsus hərbi maşınları necə təqib etdiyi və bu zaman toqquşma baş verdiyi görünür. Ağ Ev Rusiya hərbçilərinin hərəkətlərini təhlükəli və qeyri-peşəkar adlandırıb. Açıqlamada vəziyyətin iki ordunun qərargah rəisləri tərəfindən müzakirə edildiyi vurğulanır. Videoda həmçinin Rusiyaya məxsus zirehli hərbi maşınların havadan Rusiyaya məxsus iki döyüş helikopteri tərəfindən necə müşayiət edildiyi də görünür. Suriyadakı qarşıdurmanı şərh edən Rusiya Müdafiə Nazirliyi bildirir ki, ABŞ ordusu Rusiyaya məxsus hərbi polis karvanının keçməsini əvvəlcədən bildiyi halda patrulun qarşısını almağa çalışıb. Amma videonu şərh edən ekspertlər hesab edirlər ki, nazirliyin verdiyi açıqlama yayımlanan videoda baş verənlərə uyğun gəlmir.

# Ermənistanı yalnız məğlubiyyət gözləyir!

## İşğalçı ölkənin növbəti diversiya və terror cəhdi Tovuz istiqamətində təxribatın davamıdır

***Avqustun 23-də cəbhənin Goranboy rayonu istiqamətində baş verən hadisə bir daha Ermənistanın işğal və terror siyasəti yürütməsini təsdiqlədi. Hərbçilərimizin sayıqlığı, fədakarlığı və peşəkarlığı ilə düşmənin diversiya-kəşfiyyat qrupunun təxribat törətmək cəhdinin qarşısı layiqincə alındı. İfşa olunan diversantlar itki verərək geri qaçsalar da, onlara komandirlik edən Qurgen Alaverdyan əsir götürüldü. Qeyd edək ki, bu növbəti diversiya, sabotaj və terror cəhdidir, cari ilin iyulun 12-də Azərbaycan-Ermənisan dövlət sərhəddinin Tovuz rayonu istiqamətində Ermənistanın həyata keçirdiyi təxribatın davamıdır.***







Bununla bağlı yenə də Ermənistan tərəfindən yaralananlar və ölənlərin olduğu barədə məlumatlar olduğu gizlədilir.Baş verən təxribat bir daha onu göstərir ki, Ermənistan rəhbərliyi özünün çirkin niyyətlərindən və əməllərindən əl çəkmir. Eyni zamanda, düşmən Tovuzda aldığı son dərslərdən də hələ lazımi nəticə çıxara bilmir. Əksinə, Ermənistan və işğal edilmiş ərazilərdə yaradılan qondarma rejimin rəhbərliyi sərsəm bəyanatlar verir, Gəncəni, Mingəçeviri, Naxçıvanı vurmaqla hədələyir. Ardınca Goranboy istiqamətində yeni təxribatlara əl atılır. Düşmənin bütün təxribatlarının qarşısı Azərbaycan ordusu tərəfindən hər dəfə qətiyyətlə alınır. Ermənistan Müdafiə Nazirliyinin mətbuat katibi Şuşan Stepanyan Qurgen Alberyanın guya "hərbi mövqeləri yoxlamaq üçün" getdiyini, ancaq hava şəraitinin pis olması səbəbindən "azdığını" bildirib. Lakin bu açıqlamanın reallıqdan çox uzaq olmasını Ermənistanın özündə də yaxşı bilirlər. Göründüyü kimi, reallıq odur ki, düşmən bu dəfə Goranboy istiqamətində təxribata getmək istəyib, amma yenə layiqli cavabını alıb.

### Şair Ramaldanov: "Ermənistan terror dövləti olduğunu növbəti dəfə təsdiqlədi"

Ehtiyatda olan polkovnik Şair Ramaldanov bildirir ki, Azərbaycan Ordusu 2016-cı ilin aprelində Ermənistanın silahlı qüvvələrinin təxribatının qarşısını alaraq əks-həmlə ilə strateji yüksəklikləri, min hektarlarla ərazini işğaldan azad edib. Bu ilin iyulunda isə Ermənistan silahlı qüvvələrinin Tovuz istiqamətində hücumunun qarşısı alınıb, düşmən ciddi itkilər verib: "Ermənistanda cəmiyyət bu uğursuzluqlara birmənalı münasibət bəsləmir, yenə də əsgər anaları Ermənistan Müdafiə Nazirliyinə üz tutur. Buna görə də düşmən yenə təxribat törətməyə cəhd edərək, təmas xəttində gərginliyə səbəb olan addımlar ataraq, erməni cəmiyyətinin diqqətini bu gərginliyə yönəltmək, daxili problemlərdən diqqət yayındırmaq istəyir. Bu, növbəti diversiya, sabotaj və terror cəhdidir, cari ilin iyulunda Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində Ermənistanın həyata keçirdiyi təxribatın davamıdır. Azərbaycan Silahlı Qüvvələri ayıq-sayıqlığını, peşəkarlığını növbəti dəfə nümayiş etdirərək diversiya cəhdinin qarşısını aldı və qrupun komandiri əsir götürüldü".

Ş.Ramaldanov vurğulayıb ki, Azərbaycan Ordusunun təmas xəttində olan bölmələri ən müasir müşahidə və kəşfiyyat texniki vasitələri ilə təmin olunub: "Əlbəttə, erməni tərəfi indi cürbəcür şayiələr yayacaq. Ya deyəcəklər ki, həmin zabit yolu azıb, ya deyəcəklər ki, əsir götürülən şəxs ağıldan kəmdir, ya da başqa bəhanə gətirsələr də, işğalçı ölkənin uğursuz olan bu cəhdi də bir daha Ermənistanın terror dövlət olduğunu təsdiqlədi. Ancaq düşmən bilsin ki, Azərbaycan Ordusu bundan sonra da düşmənin istənilən təxribat və hücumunun qarşısını almağa hazırdır".

### Düşmənin yenə də yalanlar üzərində qurulan açılaması

Həmişə olduğu kimi, bu hadisədən sonra düşmən tərəfinin açıqlaması ənənəvi yalanlar üzərində quruldu. Guya ki, erməni zabit dayaq məntəqəsini yoxlayarkən əlverişsiz hava şəraiti ucbatından "yolu azaraq itkin düşüb". Ermənilər bunu deməklə diversiya faktını təkzib etməyə çalışmaq istəsə də Qurgen Alaverdyanın üzərindən götürülən hərbi ləvazimatlar yolu azma faktını tamamilə inkar edib. Və belə hadisələr nə birincidir, nə də sonuncu. Belə ki, Arsen Eduardoviç Baqdasaryan diversiya qrupunun digər üzvləri ilə birlikdə 2014-cü il dekabrın 26-da saat 15 radələrində qoşunların təmas xəttini gizli olaraq keçərək Azərbaycan Silahlı Qüvvələrinin müdafiə mövqelərində özləri ilə götürdükləri 7 ədəd "fuqas" tipli piyada əleyhinə minalardan 3 ədədini Azərbaycan hərbi qulluqçularının daha çox gedib-gəldiyi səngər yollarında yerləşdirdikdən sonra geri qayıtmaq istəyərkən tutulub. O, cəzasını ciddi rejimli cəzaçəkmə müəssisəsində çəkməklə 15 il müddətinə azadlıqdan məhrum edilib. Başqa bir erməni diversant Karen Armenoviç Ğazaryan isə 2018-ci il iyulun 15-i səhər saatlarında Azərbaycan-Ermənistan dövlət sərhədinin Qazax rayonu istiqamətində kəşfiyyat-diversiya qrupunun tərkibində təmas xəttini keçməyə cəhd göstərib. Azərbaycan Ordusunun bölmələrinin sayıqlığı nəticəsində düşmənin təxribat cəhdinin qarşısı alınıb və itkilər verərək geri çəkilməyə məcbur edilən qrupun bir üzvü Karen Ğazaryan ələ keçib. Məhkəmənin hökmü ilə cəzasını ciddi rejimli cəzaçəkmə müəssisəsində çəkməklə 20 il müddətinə azadlıqdan məhrum edilib.

Göründüyü kimi, hər dəfə təxribat qrupunda olan hər hansı bir şəxs Azərbaycan Ordusunun bölmələri tərəfindən ələ keçirildikdən sonra qarşı tərəf onları psixi problemləri olan kənd sakini, ruhi xəstə, çoban, cinayət törətmiş kriminal element və sərxoş halda yolunu azaraq itkin düşən kimi təqdim edir. Son olaraq əsir götürülən Qurgen Alaverdyan əgər zabit hərbi geyim formasında olmasaydı, sözsüz ki, Ermənistanın müdafiə naziriyi onu da ya çoban, ya da ruhi xəstə kimi qələmə verəcəkdi. Bu baxımdan düşmən ölkənin müvafiq qurumlarının diversiya cəhdi faktını təkzib etməsi təəccüb doğurmur.

Lakin bunu bir daha vurğulamaq lazımdır ki, nə qədər ki, Ermənistan təxribat və terror metodlarından əl çəkməyəcək, Azərbaycan ordusu tərəfindən ciddi itkiyə məruz qalacaq. Ancaq görüntü ondan ibarətdir ki, ermənilər ənənvi təxribat metodlarından əl çəkmək niyyətindən uzaqdırlar, çünki işğalçı Ermənistanın bu çirkin əməllərə əl atmaları bir daha təcavüzkar olduğunun göstəricisidir.

Təsadüfi deyil ki, Prezident İlham Əliyev bu məsələ ilə bağlı qeyd edib ki, bu çirkin əməllərə əl atmaq onların təcavüzkar siyasətinin təzahürüdür: "Bu siyasəti məntiqlə izah etmək mümkün deyil. Çünki, bu siyasət olduqca ziddiyyətlidir və bu siyasət Ermənistan üçün böyük təhlükə mənbəyidir. Çünki, mən dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, Azərbaycan heç vaxt işğal edilmiş torpaqlarının bu vəziyyətdə qalması ilə barışmayacaq, işğalla barışmayacaq və əlindən gələni edəcək ki, öz ərazi bütövlüyünü bərpa etsin".

Deməli, Ermənistan hakimiyyətinin təxribat və terror cəhdləri əbəsdir və istənilən zaman Azərbaycan Ordusu tərəfindən qarşısı alınacaq. Ermənistanı yalnız məğlubiyyət gözləyir. Tezliklə isə gündən-günə güclənən, qüvvətlənən şanlı Azərbaycan ordusunun qələbə sorağı işğal altında olan Qarabağdan, Şuşadan, Xankəndindən gələcək...

**A.SƏMƏDOVA**

# "Rusiya Azərbaycanla münasibətlərin müsbət dinamikasında maraqlıdır"



"Rusiyanın müdafiə naziri Sergey Şoyqunun Azərbaycana səfərinin pərdəarxasında bir neçə məqsəd var. Bunlardan birincisi heç şübhəsiz ki, iki ölkə arasında mövcud olan əlaqələrin təhlili və müxtəlif sahələri əhatə edən əməkdaşlığın inkişaf perspektivlərinin müzakirəsidir. Digər bir məsələ və Rusiyanı son dərəcə düşündürən məsələ Türkiyə-Azərbaycan hərbi əməkdaşlığının dərinləşməsidir ki, Şoyqu bu səfəri ilə hal-hazırki vəziyyət barədə məlumat əldə etmək marağındadır. Bundan əlavə, Azərbaycan ictimaiyyətində Minsk Qrupu həmsədrlərinin biri qismində Türkiyəni görmək istəməsi də Rusiyanı son dərəcə narahat edən məsələdir. Bununla yanaşı cənab Prezident İlham Əliyev Türkiyənin müdafiə naziri Hulusi Akarı Bakıda qəbul edərkən bildirdi ki, hərbi texnika alışında Azərbaycan əsasən Türkiyəyə üstünlük verəcək. Bu da təbii ki, Rusiyanı olduqca maraqlandıran məsələdir, çünki bu vaxta qədər Azərbaycan Silahlı Qüvvələri öz arsenalını Rusiyada istehsal olunan silahlarla da təmin edib". Bunu SİA-ya açıqlamasında politoloq Şəbnəm Həsənova deyib.

O, söyləyib ki, digər bir məsələ Azərbaycanın dövlət başçısı İlham Əliyevin Rusiya prezidenti Vladimir Putinlə telefon danışığı və danışıq zamanı cənab Prezidentin Rusiyanın gizli şəkildə Ermənistana silah, sursat və hərbi texnika yollamasından Azərbaycan dövlətinin və xalqının narazı olduğunu bildirməsi məsələsidir: "Əslində Rusiya dünyanın ən güclü və inkişaf etmiş hərbi sənayesinə malik ölkə kimi istənilən dövlətə silah-sursat sata bilər. Lakin Rusiya ATƏT-in Minsk Qrupunun həmsədr dövləti olduğundan bu məsələdə Ermənistan istisna təşkil etməlidir. ATƏT-in Dağlıq Qarabağ münaqişəsinin dinc yolla nizamlanması üçün yaratdığı Minsk Qrupunda həmsədr ölkə olan Rusiyanın belə davranışı onun mövcud münaqişə barəsində nə qədər ədalətli davranacağını artıq sual altına qoyur. Rusiyanın Cənubi Qafqazdakı maraqları isə hamı üçün aydındır. Hər nə qədər Rusiya Dağlıq Qarabağ məsələsində Ermənistana dəstək görtərsə də Azərbaycan da Rusiyanın maraq dairəsində olan dövlətdir. Hal-hazırda istər Belarus, istər Gürcüstan, istərsə də Ukrayna kimi post-sovet dövlətləri ilə soyuq münaibətlərin fonunda Rusiya Azərbaycanı etibarlı tərəfdaşı kimi görür. Rusiya xarici siyasətində qonşu dövlətlərlə, xüsusilə də Azərbaycana böyük önəm verir. Azərbaycanın iqtisadi, hərbi və texniki potensialının Ermənistanla müqayisədə qat-qat üstün olduğunu bilən Rusiya Azərbaycanla münasibətlərinin müsbət dinamikasında maraqlıdır".

Politoloq qeyd edib ki, bundan əlavə Rusiya da çox aydın fərqindədir ki, Ermənistanın baş naziri Nikol Paşinyan son dönəmlərdə aşkar şəkildə Qərbə meyillənir: "Paşinyanın hakimiyyətə gəlişindən sonra müşahidə olunan başqa tendensiyalar haqqında da danışa bilərik. Rusiya telekanallarının yerli yayım şəbəkəsindən sıxışdırılmasını təmin edən qanun layihəsi; İctimai Televiziyada rusdilli verilişlərin bağlanması və s. Kreml erməni cəmiyyətində anti-Rusiya hisslərinin artmasından narahatdır. Hal-hazırda Sorosun "Açıq Cəmiyyət İnstitutu" Ermənistanda praktiki olaraq bütün sferaları əhatə edən - KİV, jurnalist araşdırmaları, siyasi təşkilatlar, gənclər siyasəti, insan hüquqlarının müdafiəsi, təhsil, elm və s. - 60 QHT-ni maliyyələşdirir. Kreml artıq açıq şəkildə görür ki, Ermənistan Qafqazdakı anti-Rusiya qüvvələrinin tramplininə çevrilib. Rəsmi Moskva erməniləri maraq dairəsindən uzaqlaşdırmaq istəmir, bu ölkənin for-post olmasında maraqlıdır və Rusiya Dağlıq Qarabağ münaqişəsində status-kvonu qoruyub saxlamaqla yanaşı, Ermənistanın tam zəif duruma düşməsinə yol verməməyə çalışır. Eyni zamanda da Azərbaycanla da münasibətlərin müsbət dinamikasında maraqlıdır".

Ş.Həsənova vurğulayıb ki, Rusiya ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrindən biridir və Dağlıq Qarabağ məsələsinin həlli prosesində açar tərəfdir: "Bu baxımdan mövcud reallıqlar kontekstini nəzərə alaraq Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində ATƏT-in Minsk Qrupunun həmsədr dövləti olan Rusiyanın bu məsələdə olan mövqeyi və marağı bizim üçün də çox önəmlidir".

**Aysel Məmmədova**

# Margin radikalların çirkin niyyətləri üzə çıxdıqca...

### Yaxud “Milli Şura”nın “zoom konfransı”nın macaraları...

“Milli Şura” hələ yaranmamışdan qabaq “böyük arzularla” yaşayırdılar. Elə zənn edirdilər ki, artıq bu dəfə “istəklərinə çatacaqlar”. Ancaq anlamırdılar ki, xalq bu günkü müxalifətin bir illik fəaliyyyətindən çəkdiklərini çəkdilər, gördüklərini gördülər. Və elə 2003-cü ildən də heç bir şey lazım olmayan tryapka kimi atdılar o üfunət iyi verən zibilxanaya. Bir də bu ölü qurum yaranmamışdan öncə deyilirdi ki, o, perspektivi olmayan, “ölü doğulmuş” bir təşkilat olacaq. Xüsusilə də, Yeni Azərbaycan Partiyasının rəhbərliyi, funksionerləri dəfələrlə mətbuata açıqlamasında bildirmişdilər ki, “Milli Şura” antiazərbaycançı dairələrin layihəsidir və onun perspektivi görünmür və yaranması ilə dağılması arasında vaxt az olacaq. Məhz, bu gün artıq söylənilənlər bu gün göründü.

Aydın məsələdir ki, istənilən siyasi qurumun və ya təşkilatın səmərəli fəaliyyəti üçün ideologiya mütləq lazımdır. Çünki ideologiya həmin təşkilatın əsas fəaliyyət istiqamətlərini müəyyənləşdirir, onun hansı amal uğrunda mübarizə apardığını ortaya qoyur. Lakin “Milli Şura” elə yarandığı gündən fəaliyyətini o qədər primitiv və qeyri-müəyyən şəkildə göstərdi ki, onun ideologiyasız şəraitdə “işlədiyini” güman etmək də heç də çətin olmur. Yəni, onun tərkibində daxil olmuş Müsavat, AXCP, ACP, ALP və digərlərinin hər birinin özünəməxsus fəaliyyət istiqaməti və inancları var idi. Bu da reallıqdır ki, adları çəkilən partiyaların böyük əksəriyyəti 1988-ci ildə başlanmış azadlıq hərəkatının sosial bazası əsasında yaradılıb. Və nəzərə alsaq ki, bu gün əsas ideologiyası Dağlıq Qarabağ, sonradan ölkənin müstəqilliyi olan azadlıq hərəkatının missiyası tam başa çatdı, o zaman, bu partiyaların da yenidən qurulmasına, dəyişməsinə ehtiyac yarandığını tam mənada söyləmək olardı. Ancaq nə Müsavatın, nə AXCP-nin, nə digərlərinin konkret ideologiyası olmadığı üçün hər biri ayrı-ayrılıqda başlarından böyük layiq olmadıqları istəklərdə idilər. Çünki onların əsas ideologiyası satqınlıqdır. Baxın, Müsavat Dağlıq Qarabağı ermənilərə “bağışlayan” sənədə imza atıb, AXCP hələ çoxdan torpaqlarımızı 2000 dollara satıb - yəni bütün bunlar ictimaiyyətin diqqətindən və yaddaşından çıxmayıb. Eyni zamanda, ideologiyasızlıq şəraitində “Milli Şura” daxilində ciddi qarşıdurmalar yaşanmağa başladı.

İdeologiyasız fəaliyyət göstərən “Milli Şura” mütləq mənada məğlubiyyətə düçar olacaq. Hələ də “Milli Şura” daxilində yer alanlar bir dəfə də olsun özlərinə sual etməyiblər ki, insanlar nə üçün onlara səs verməlidir? Niyə “Milli Şura”nın satqın fəaliyyətinə dəstək olmalıdır? Demək ki, ideologiya hər şeyi həll edir. Elə 1992-ci ildə yaradılarkən güclü, müstəqil və yeni Azərbaycan - vəd edən Yeni Azərbaycan Partiyası 6 aydan sonra xalq tərəfindən hakimiyyətə gətirildi. Niyə?. Çünki Yeni Azərbaycan Partiyasının xalqa xidmət edən ideologiyası, milli fəaliyyəti var idi. Budur, idiologiya, mili fəaliyyət.



Qoca rejissor Rüstəm İbrahimbəyov, İsa Qəmbər, Əli Kərimli, Eldar Namazovu, Rəsul Quliyevi, Mehman Əliyevi və digərləri Azərbaycan xalqının yaddaşında silinməz xəyanət izləri qoymuş fəaliyyətləri var.

### “Milli Şura”nın siyasi ambisiyalıları...

Elə götürək “Milli Şura”nın “vahid namizədi” Rüstəm İbrahimbəyovu. O, həyatının böyük bir hissəsini Azərbaycandan kənarda yaşayıb və düşüncəsi də, mentaliteti də yadlaşıb və heç bir zaman Azərbaycan xalqını anlaya bilməyəcək. Eyni zamanda, Rüstəm İbrahimbəyovun iddialarının Azərbaycan xalqının milli maraqlarından irəlidə durması onun siyasi perspektivinin üzərində qalın xətt çəkir. Xalqın yaddaşındadır ki, 2008-ci ildən sonra qoca rejissor siyasi ambisiyalarını ortaya qoymağa başladı və bu da ermənilərin dəstəyi ilə reallaşdı. Rəhbəri olduğu AKİ-nin bütün resurslarını istismar edən, dövlət torpaqlarını zəbt edən, vergidən yayınan qoca rejissor şantaj vasitəsilə Şəhidlər Xiyabanını da restoranlar şəbəkəsinə çevirmək niyyətində idi. Amma ictimaiyyətin kəskin reaksiyası və milli hakimiyyətin qəti mövqeyi Rüstəm İbrahimbəyovun ermənilərlə birgə planının qarşısı alındı.

Yaxud da, İsa Qəmbər, Əli Kərimli, Rəsul Quliyev də anti-milli fəaliyyətilə xalqın yaddaşındadır. Adları çəkilən və yaxud çəkilməyən anti-milli ünsürlərin xəyanətkar əməlləri haqqında geniş danışmağa ehtiyac da yoxdur. Çünki, onlar bunu hər danışıqlarında və addımlarında isbatlayıblar.

Göründüyü kimi, “Milli Şura” siyasi strategiyası olmayan “Milli Şura” bu günə kimi xalq tərəfindən qəbul olunmayıb. Düşdükləri bu durumdan çıxmaq üçün başladılar dövləti, satqın, mənəviyyatsız Qənimət Zahid dediyi kimi hakimiyyəti şərləməyə. Elə zənn etdilər ki, bu pandemiya zamanında “zoom iclaslar” keçirsinlər. Bu isə, necə deyərlər, “qaş düzəltdikləri yerdə” vurdular o kor olan gözlərini çıxarmağa. Qiybətxana məskanına çevrilən “Milli Şura” dakılar danışıqları, davranışları və savdsızlıqları ilə bir daha nə qədər iyrənc əxlaqa, mənəviyyatsızlığa, istifadə olunmuş alətə, daha doğrusu hətta ayaqqabı silməyə belə gərək olmayan “tryapka” olduqlarını göstərdilər. Bir sözlə, özləri özlərini kəfənsiz, mollasız dəfn etdilər. Çünki artıq xalq “Milli Şura” deyilən ölü qurumun radikal müxalifətin tabutu olduğunu deyir. Bir də, “Milli Şura”nın bu dərəcədə rəzilləşməsi, öz dövlətinə, millətinə münasibətdə düşmənlə eyni mövqeni bölüşməsində, əslində yeni bir şey yoxdur!

İllərdir, siyasi səhnədə o, məhz belə rəzil və çirkin rollar oynayıb və bu gündə oynayır. Xalqının, millətinin, vətəndaşının və dövlətinin güzəranının pisləşməsinə sevinənlərin, ondan öz məqsədləri, öz təbliğatları üçün istifadə edənlərin bir adı ola bilər - Xalq düşmənləri!!! Nə gündəsiniz. Bəlkə kifayətdir, abırsızlıq bu qədər olmaz, qaldıqca daha çox meymunluq edəcəksiniz, haraya qədər!.. Onsuz da ölüsünüz!!!

**Rəfiqə HÜSEYNOVA**

# “Karantin qaydalarının tam yumuşaldılmasına tələsmək olmaz”

***“Artıq mart ayından etibarən Azərbaycanda COVİD-19 pandemiyası ilə əlaqədar olaraq karantin qaydaları tətbiq olunur. Tətbiq olunan karantin qaydaları yoluxma dinamikasına uyğun olaraq sərtləşdirilimiş və ya yumuşaldılma tətbiq edilmişdir. Təcrübə göstərir ki, tətbiq edilən karantin qaydaları və virusun yaılmasının qarşısının alınması ilə bağlı hökumətin atdığı addımlar sayəsində yoluxma ölkəmizdə təhlükəli həddə çatmamışdır. Düzdür birinci yumuşaldılma dövründə bəzi vətəndaşların səhlənkarlığı və sosial şəbəkələrdə fəaliyyət göstərən təxribatçıların səyi ilə yoluxma halı yüksəlsə də yenidən sərt karantin qaydalarının tətbiqi və digər cəza tədbirləri nəticəsində virusun geniş yayılmasının qarşısı yenidən alındı.***

Artıq son bir aydı biz yenidən qaydalarda yumuşaldılma halını müşahidə edirik. Artıq tətbiq edilən bir çox qadağalar aradan qaldırılmışdır. Həyat yenidən tədricən öz axarına qayıdır. Bu əslində dövlətin virusa qarşı mübarizəsinin müsbət nəticəsidir.” Bu sözləri SİA-ya verdiyi açıqlamasında Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, Sağlam İnkişaf və Maarifləndirmə İctimai Birliyinin sədri Anar Xəlilov deyib.

İctimai Birliyin sədri vurğulayıb ki, indi əsas və vacib məsələ bu vəziyyəti qoruyub saxlamaqdır ki, yenidən sərt qadağalar dövrünə qayıtmayaq.

“Əslində, sərt qadağalar virusun yayılmasının qarşısının alınmasına xidmət etsə də, iqtisadiyyatdan tutmuş vətəndaşların sosial vəziyyətinə qədər bütün sahələrə mənfi təsir edir. Bu da təbii ki, tək Azərbaycanı deyil bütün pandemiyanın təsirini özündə hiss edən ölkələrdə də hiss olunur. Heç bir ölkə uzun müddətli karantinə hazır deyil və ya bunu davam etdirə bilməz. Lakin ortada insan taleyi faktoru var. Bu daha vacib olduğundan paralel şəkildə digər həyatı vacib sahələr də qorunmağa çalışılır. Ancaq təcrübə göstərir ki, yumuşaldılma olduqdan sonra virus yenidən aktiv olaraq daha geniş yayılır. Bütün ölkələr bu problemlə üz-üzə qalıblar. Belə vəziyyətdə isə əsas məsuliyyət dövlətlə yanaşl vətəndaşın da üzərinə düşür. Mən hətta deyərdim elə vətəndaşın davranışı əsas faktordur. Bu problem bu gün Azərbaycanda da çox aktualdır. Hazırda yoluxmanın aşağı tempdə olması ilə əlaqədar olaraq yumuşaldılma prosesi davam edir. Ancaq mən hesab edirəm ki, bu proses sürətli şəkildə olmamalıdır. Çünki əgər vaksin hələ hazır deyilsə, və ya virus əleyhinə effektiv müalicə dərmanı mövcud deyilsə biz ehtiyatlı olmalıyıq. İlk növbədə iqtisadi sahələrdə yumuşaldılma getməlidir ki, hazırda bu istiqamətdə biz bunu müşahidə edirik. Digər sahələrdə isə məncə bir qədər də gözləməliyik. Bu günə qədər Cənab Prezidentin səyi nəticəsində dövlətin atdığı addımlarla digər ölkələrlə müqayisəd əhali sayına nisbətdə biz az itki ilə üzləşmişik. Bunu qoruyub saxlamalıyıq. Artıq vaksinlər bir çox ölkələrdə sınaqdan keçirilir. Biz vaksinin ölkəmizə gətirilməsinə qədər həyatı vacib sahələr istisna olmaqla digər sahələrdə tam yumuşaldılmaya getməməliyik. Pis günün ömrü az olar deyib atalarımız. Məncə, bu misala uyğun olaraq bir az da səbrli olmalıyıq. Təhsil müəssisələrinin açılmasına gəldikdə isə, yoluxma az da olsa üç rəqəmli ilə ifadə olduğu zamanda mən bunun qəti əleyhinəyəm. Əsas kütləvi toplaşma elə təhsil müəssisələri ilə bağlıdır. Çünki məktəbə uşaq aparan valideynlər, müəllimələr, çagirdlərin özləri, bunun nəticəsində ictimai nəqliyyatdakı yaranacaq sıxlıq, məktəb yaxınlıqlarındakı marketlərdə yaranacaq növbələr və sair bu kimi hallar virusun yayılmasına münbit şəraitdir. Əgər düşünürüksə burada qaydalar tam olaraq gözləniləcək təmamilə yanılırıq. Hesab edirəm ki, karantin qaydalarının tam yumuşaldılmasına tələsmək olmaz. Başa düşürəm, şagirdlərimizin, Ali məktəb tələbələrimizin təhsil səviyyəsinə ciddi mənada mənfi təsir olur. Amma təhsildə geriləmənin yerini doldurmaq mümkündür, lakin virusdan ölən vətəndaşlarımızı geri qaytarmaq mümkün olmayacaqdır. Hər bir virus nıticəsində vəfat edən insan bizim vətəndaşımızdır, bizlərdən biridir, qohumdur, dostdur və ən nəhayət azərbaycanlıdır. Fərq etməz kimliyindən aslı olmayaraq bütün dünyada bu virusdan həyatını itirənlər insandır. Allah hər kəsi qorusun”, deyə Anar Xəlilov bildirib.



# Sevinc Osmanqızı müxalifətdaxili qaşıdurmanı gərginləşdirir



***Bütün dünya xalqlarına özünü gizli düşmən kimi təqdim edən koronavirus epidemiyasına qarşı insanlar birgə mübarizə aparmaq üçün çağırışlar edir, təklif və ideyalar irəli sürürlər. Nəticələrdə var. Aparılan maarifləndirici söhbətlər, dövlətlərin tətbiq etdiyi sərt qarantin qaydaları pandemiyanın yayılmasının qarşısını qismən də olsa almağa imkan verib. Azərbaycan müsbət nəticələr əldə edən dövlətlər arsında ön sırada dayanan dövlətlərdəndir. Əldə olunan müsbət dinamika istər yoluxma, istərsədə ölüm sayında özünü göstərməkdədir.***

Təbii ki, müsbət nəticənin qorunub, saxlanması üçün Nazirlər kabineti yanında operativ qərargahın qəbul etdiyi qayda və tövsiyyələrə əməl edilməsi vacibdir. Ancaq təəssüf hissi il demək olar ki, heçdə, bütün vətəndaşlar qaydalara əməl emirlər. Acınacaqlı hal həm də ondan ibarətdir ki, sosial şəbəkələrdə qarantin qaydalarının daha da yumşaldılması barədə statuslar paylaşılır, iddilar irəli sürülür. Xüsusilə də, bu istiqamətdə dağıdıcı müxalif ünsürlər və onlarla eyni qazandan qidalanan şəxslər çıxış edirlər. Onlar koronavirusun dünyanı ağuşuna aldığı bir vaxtda Azərbaycan xalqı ilə birlik nümayiş etdirməkdənsə təxribatlara daha çox üstünlük verirlər. AXCP sədri Əli Kərimli sanki, bu günü gözləyirmiş kimi, ağına- bozuna baxmadan pozucu fəliyyətini daha açıq və sərt formada genişləndirir. Hətta Ə.Kərimli özü kimi dayaz düşüncədə və ağılda olan insanların iştirakı ilə aksiyalar keçirmək çağırışı ilə çıxış edir. Anormal məqam ondan ibarətdir ki, Sevinc Osmanqızı AXCP sədri və onun ətrafının təxribatçı əməllərinin xarici ölkələrin mətbu orqanlarında işıqlandırılması və beynəlxalq təşkilatların rəhbərlərinin diqqətinə çatdırılması üçün fəaliyyətini genişləndirib.

### "Osmaqızı Tv" müxalifəti idarə edən quruma çevrilir

Hazırda görünən real məqam ondan ibarətdir ki, müxalifətə təsir və təzyiq, maddi və mənəvi yardımların göstərilməsinə baxamayaq, müxalifət qarşılarına qoyulan vəzifələri icra edə bilmir. Bu da müxalifət partiya sədrləri ilə xaricdəki anti-Azərbaycan şəbəkə arasında ciddi ixtilaflar yaradır ki, bundan S. Osmanqızı da ziyan çəkir. Çünki, bəzi idioloji məslələrin həlli edilməsi, informasiya baxımından müxalifətin təmin olunması və digər məsələrin həllini S.Osmanqızı öz üzərinə götürüb. Təbbi ki, bu kimi öhdəliklər dostluq və ya tanışlıq xatirinə edilmir. Həm də, nəzərə almaq lazımdır ki, S.Osmanqızı yaxın əzizinə belə, marağı təmin olunmasa nəsə yardım etməz. Onun fəaliyyəti və insanlara yanaşması "əl əli yuyar, əl də qayıdıb üzü yuyar" prinsipi əsasında formalaşır. Hətta marağı xatirinə erməniləri və erməni lobbisinin də, Azərbaycan əleyhinə olan fəaliyyətlərini müdafiə edir. Misal olaraq, xaricdə yaşayan soydaşlarımızın Ermənistanın işğalçılıq siyasətinə etiraz əlaməti olaraq keçirdikləri aksiyaları tənqid edərək, təşkil olunan aksiyaları vətənşüvənlərin aksiyası adlandırmasını göstərmək olar. Eyni zamanda S.Osmanqızı "SOROS" fondunun maliyələşdirdiyi və özünün rəhbərlik etdiyi "Osmanqızı Tv" də çıxış edərək 1990 -cı il 20 yanvar faciəsi öncəsi azərbaycanlıların ermənilərə qarşı təxribatlar törətdiklərini və respublikadan qovduqlarını bildirb.

Bir sözlə, S.Osmanqızı pula-paraya görə, ermənilərə boyun əyən, onların maraqlarından çıxış edən şəxsdir. Nədi-nədi erməni lobbisi ona maliyyə yardımları göstərir. Bu faktlara istinadən demək olar ki, S.Osmanqızı kimi pula həris şəxsin Azərbaycanın dağıdıcı müxalifətinə qarşılıqlısız heç bir informasiya dəstəyi göstərməz. Hətta ona "nə zamansa hakimiyyətə gəlsək sənə ən yüksək vəzifə verərik" desələrdə S.Osmanızı "soğan olsun nağd olsun" deyib, şirnikləndirici vədləri qulaqardına vuracaq. Təbii ki, Ə.Kərimli, C.Həsənli və xaricdəki maraqlı dairələrdə S.Osmnanqızının xasiyyətinə bələdirlər. Ona görədə, mübahisə etmədən qaragüruh fəaliyyəti qarşılığında ona maliyyə yardımları göstərirlər.

### S.Osmanızı Ə.Kərimliyə Müsavat başqanı A.Hacılı ilə əməkdaşlıqdan imtina etmək göstərişi verib

Hikkəli və iddialı olan S.Osmanqızı pul alsada tam şəkildə Ə.Kərimlinin və xarici dairələrin istəklərini yerinə yetirmir. Bəzi hallarda demək olar ki, çalışır ki, öz iddialarını Ə.Kərimliyə yeritsin və bir növ AXCP sədrini özündən aslı vəziyyətə salsın. Çünki, S.Osmanqızı aydın şəkildə dərk edr ki, Ə.Kərimli heç kimə lazım olmadığından, onunla maraqlanan, ondan açıqlama alanda yoxdur. Bu reallığı Ə.Kərimlidə anlayır. Məhz bu fakt səbəbindən Ə.Kərimli S.Osmanqızının "bunu söy, başqasını təriflə və o birinə qarşı isə loyal yanaş" tələblərini qeyr-şərtsiz yerinə yetirir. Deyilənlərə görə, Azərbaycanın dağıdıcı müxalifəti arasında avtoritetə çevirilən S.Osmanızı Ə.Kərimliyə Müsavat başqanı A.Hacılı ilə əməkdaşlıqdan imtina etmək göstərişini verib. Həm də, başa salıb ki, "Milli Şura"nın üzvü Gültəkin Hacıbəyli ilə məsafə saxlasın. Ortada olan faktlar onu deməyə əsas verir ki, Ə.Kərimli S.Osmanqızının bizə məlum olan tələblərini yerinə yetirir. Yeni Müsavatla hər hansı bir əməkdaşlıq münasibətləri yoxdur. G. Hacıbəyliyə qarşı isə inamsızlığın olması gözə qabağındadır. Hər bir tədbirdə və aksiyalarda Ə.Kərimlinin yanında olan G.Hacıbəyli bu günlər Ə.Kərimlinin Əbülfəz Elcibəyin məzarını ziyarət edərkən, onun yanında görünmədi. Dah doğrusu, G. Hacıbəylini yaxına buraxmadılar. Bu da onu göstərir ki, G.Hacıbəyli müxalifət düşərgəsi üçün də arzuolunmaz şəxsə çevrilib. Baxmayaraq ki, G. Hacıbəyli zoran özünü müxalifət düşərgəsinin aparıcı simalardan olduğunu göstərməyə çalışır. Əslində isə, o müxalifətə də, lazım olmayan dəyərsiz məxluqdur.

**İ.ƏLİYEV**

# Sən demə, Fuad Qəhrəmanlı ondan imtina etmiş ailəsinə o qədər "bağlı imiş" ki, onun "dərdi" Əli Kərimlini də gecələr yatmağa qoymurmuş...




Ailəsinə qarşı xüsusi aqressiyası, qəddarlıq və mozaxistlik həvəsi ilə bir müddət əvvəl gündəmə gələn AXCP sədrinin keçmiş müavini Fuad Qəhrəmanlı şousu hələ də davam edir. Söz yox ki, bu şounun əsas maraqlı tərəfi Əli Kərimlidir. Çünki bu gün onun üçün ən vacib olan məsələ gündəmdə qalmaqdır. Məsələn, "Milli Şura"nın koordinasiya mərkəzinin üzvü, aqressiv davranışı və qabalığı ilə seçilən, bu məzmunda törətdiyi cinayətinə görə həbs olunmuş Tofiq Yaqublunun məhkəməsi ətrafında oyunbazlıqlar göstərib, "əzabkeşlər" tamaşasını nümayiş etdirən AXCP sədri üçün əsas amil "nə qədər çox həbslər olarsa, bir o qədər də xeyirdir" konteksti sərfedicidir.

**Sən demə, Fuad Qəhrəmanlı ondan imtina etmiş ailəsinə o qədər "bağlı imiş" ki, onun "dərdi" Əli Kərimlini də gecələr yatmağa qoymurmuş...**

Eləcə də, F.Qəhrəmanlının ətrafında da eyni mühit yaradılır və cəbhəçilərin sədri bu mühit ətrafında gündəmdə qalmağa cəhdlər göstərir. Ancaq necə? Məsələ ondadır ki, Ə.Kərimli və digər cəbhəçi trollar "facebook" hesablarında F.Qəhrəmanlı ilə bağlı hay-haray qaldırırlar ki, guya ailəsi ondan xəbər tuta bilmir və s. Sən demə, F.Qəhrəmanlı ondan imtina etmiş ailəsinə o qədər "bağlı imiş" ki, onun "dərdi" Ə.Kərimlini də gecələr yatmağa qoymurmuş...

Ancaq gəlin-görək, Ə.Kərimli unudubmu ki, F.Qəhrəmanlı ilə birləşib vaxtilə onun ailəsinə, həyat yoldaşına və qız övladlarına hansı işgəncələri veriblər?...

**AXCP sədrinin sərgilədiyi tamaşanın bir ucu gedib-çıxır qrant maraqlarına**

Yaxud bu, həmin AXCP sədri deyil mi ki, F.Qəhrəmanlı həyat yoldaşı Zümrüd Yağmurun barmaqlarını qırandа, qız övladının diz qapağını zərbə ilə zədələyəndə "AXCP-nin və bizim nüfuzumuza görə dözməlisən" deyirdi? İndi nə baş verdi və necə oldu ki, Ə.Kərimlidə "humanizm" yarandı və üstəlik, zərbə alanları deyil, zərbə vuranı "əzabkeş", "məzlumkeş" kimi təqdim etdi? Əslində isə, bu, bir bəhanədir. AXCP sədrinin sərgilədiyi tamaşanın bir ucu gedib-çıxır qrant maraqlarına və bu ətrafdaca "ağlaşma", "dizədöymə" səhnələrini qurur. Əbəs deyil ki, Əli Kərimli Fuad Qəhrəmanlının adını "Amnesty İnternational"ın hesabatına saldırıb və indi də cibini açıb, qrantını gözləyir...

**Rövşən RƏSULOV**



# Bəs sizlər kimilərin nökərlərisiniz?

**RƏFİQƏ**

"Haqsız oturub, haqdan danışmaq" buna deyirlər. Bu gün belə nankorlar, satqınlar, cinayətkarlar çoxdur. Necə deyərlər, ağzını açanda bilirsən ki, səviyyəsi nə dərəcədir. Ən təəccüb doğuran isə, yerindən duran, Avropanın küçələrində sülənənlər özlərini yaa "hüquq müdafiəçisi", ya da "demokrat jurnalist" adlandırırlar və gecə-gündüz sosial şəbəkələrdən düşmürlər. Görünür, bəlkə də elə orda da gecələyirlər.

Belə olmasaydı ölkəmizdə hansı uğurlu nailiyyətlər eşidirlər, xüsusilə də dövlət başçımızın xalqı tərəfindən böyük məhəbbətlə əhatə olunduğunu, həmçinin dünya dövlətlərinin Prezident İlham Əliyevin diplomatik xarici siyasətinə həsəd apardığını eşitdikcə sağalmaz virusa tutulan "beşinci kolon"un erməniyə nökərçilik edən dələduz və satqınlar - Əli Kərimli, Sevinc Osmanqızı, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Vidadi İskəndərli, Arif Məmmədov, Qurban Məmmədov və...bu kimi parazitlər qaşınmağa düşürlər. Bu kəslər o kəslərdir ki, Azərbaycanın çörəyini yeyib, suyunu içərək böyüyən, ərsəyə gələn, adam içinə girib özünü "adam" sanmağa başlayan, sonradan isə bütün bunları unudaraq, yediyi çörək və içdiyi su qabına qudurğancasına şıllaq atıb aşıran nankorlar, satqınlar o qədərdir ki! Bu o fərdlərdir ki, xarici dövlətlərə müxtəlif yollar sayəsində həyasızlıq, şivənlik yolları ilə mühacirət edib öz ölkəsinə qarşı düşmən mövqeyi göstərsələr də nəticədə yaxşı cavablarını alırlar. Elə götürək Azərbaycanı vaxtilə Avropa Şurası və Parlament Assembleyasında təmsil edən sabiq deputat, müxalifətin "Mat Tereza"sı Gültəkin Hacıbəyliyə qurumun binalarına və tədbirlərinə ömürlük giriş qadağası qoyulduqdan sonra yenə də danışması, hələ də özlərinə azərbaycanlı demələri, həyasızlığın son həddidir, buna deyirlər. Hansı ki, belələrinin hətta bu millətin adını daşımağa belə heç bir mənəvi haqları qalmayıb. Qalmayıb, həm də ona görə ki, belə "azərbaycanlıların" özlərini "siyasi mühacir" olmalarına təkan verən erməniçilik sevdasızlarıdır. Bax, bu tükənməz erməni sevdası olan bu kəslər bu gün erməni deyilən bir bici, nəsli-kökü bilinməzi azərbaycanlı deyilən bir qeyrətlidən daha artıq tutmaqla, əslində, nə qədər mənəviyyatsız olduqlarını göstərirlər. Hətta istifadə edilib atıldıqları bir məqamda da.

Mənəviyyatı, şərəfi, ləyaqəti olmayandan başqa heç nə gözləməyə dəyməz.

Bu günlərdə bu satqınlar dövlət başçısının yeni icra başçılarına qəbulu zamanı tapşırıq və tələbini bildirərək dedi ki, "biz hamımız - məmurlar, millət vəkilləri xalqın xidmətçiləriyik" yanaşması ən əsas məsələ kimi vurğulanıb. Azərbaycan dövlətinə, dövlətiliyinə, hər bir Azərbaycan vətəndaşına olan təhlükənin, təhdidin qarşısını almaq üçün hər bir məmur cavabdeh olmalıdır. Dövlət başçısı bütün məmurları işlərində hər şeyin qanun çərçivəsində həyata keçirmələrini bildirib. Lakin Avropa sülengəc olan və özünü dönö-dönə "hüquq müdafiəçisi" adlandıran Vidadi İskəndərli dövlət başçımızın dediyi "xalqın xidmətçisiyik" deməsini "sanitar" adlandırması, bu yerdə necə deyərlər "ölü toyuğun da gülməyi gəlir". Buna deyərlər "tupoyluq". V.İskəndərli deyir ki, "indi də Azərbaycanın dövlət başçısı xalqa müraciət edir ki, nəyin bahasına olursa-olsun qulluqçu olmalısınız",- deyir. Sonra da başlayır saatlarla dövlətin, xalqın ünvanına böhtanlar yağdırmağa. Sonda isə, Azərbaycan xalqını mitinqlərə çağırışını etməyə: "Ayılın, bu dövlət sizi uçuruma aparır. Bu dövlət sizlərə nə edib ki, arxasında durursunuz?". Budur, 100 faiz həyasızlıq. Yeri gəlmişkən, elə bu aralarda adını "Meydan TV" qoyub, çox sevdiyi, ayaqları altına düşdüyü, hətta filanfulan yerlərini dəsmalladığı erməni dayılarına nökərçilik edən cinayətkarlardan hətta qohumları belə imtina etdikləri halda bu gün Gültəkin Hacıbəylinin müdafiəsi ilə bağlı bəyanat verirlər. Bu təəccüb də doğurmur. Çünki it-itin ayağını tapdalamaz.

Onu da deyək ki, əslində, bu şərəfsiz cinayətkarlar, nankorlar meydanda tək deyil. Və bu gün onları müdafiə edənlər isə elə onlar kimi erməniyə dayı, əmi, hətta ata deyən axecepenin baş çaqqalı, "sanitarkası" Əli Kərimli, Vidadi İskəndərli və ətrafında olan çaqqalları, soruşmaq istərdim ki, siz satqınlar kimilərin nökərlərisiniz?. Erməniyə qardaş, bacı, dayı, əmi deyənlərsiniz. Çünki ermənilər bunları yedirdir, içirdir, lazım gələndə də...

Bax, bütün bunlardan sonra əlavə şərhə də məncə heç bir ehtiyac qalmır. Hər halda kor-kor, gör-gördür. Ancaq bir şeyi unutmayın - haqqı itirib, haqsızlığa gedənlərin sonu olmur. Bu yerdə Dostoyevskinin cinayətkarla bağlı dediyi sözləri xatırlatmaq istərdim: "Cinayəti törədib, onun cəzasından qaçmaq mümkündür. Amma o cinayətin qorxusundan çıxmaq əsla mümkün deyil". Bu gün müxalifət cinayətinin, xəyanətinin qorxusu ilə baş-başa qalıb. Və müxalifət bir daha bunu anlamalıdır ki, cinayətkarlar cəzadan yayına bilməz.

***Ermənistanın 1988-1992-ci illərdə planlı şəkildə həyata keçirdiyi son etnik təmizləmə siyasəti nəticəsində tarixən onun ərazisində yaşamış 250 min azərbaycanlı son nəfərədək öz doğma yurdlarından zorla qovulmuş və Azərbaycana pənah gətirmişlər. Eyni zamanda 1990-cı ildə Orta Asiyadan didərgin salınmış 50 min nəfərədək Axıska türkü də Azərbaycanda sığınacaq tapmışdır.***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

*Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi*

# Azərbaycanın işğal olunmuş ərazilərində baş vermiş humanitar fəlakət

Ermənistan silahlı qüvvələrinin 1988-1993-cü illərdə ölkəmizə hərbi təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizi - Dağlıq Qarabağın, eləcə də ona bitişik olan 7 rayonun ərazisi işğal olunmuş, Dağlıq Qarabağdan, ətraf rayonlardan, həmçinin Ermənistanla və ya Dağlıq Qarabağla həmsərhəd olan yaşayış məntəqələrindən 700 min nəfərədək soydaşımız öz daimi yaşayış yerlərindən məhrum olaraq məcburən köçkün düşmüş və respublikanın 62 şəhər və rayonunda, 1600 - dən çox sıx məskunlaşma obyektində müvəqqəti məskunlaşmışlar.

Azərbaycanda həmçinin 11 min nəfərdən çox "qaçqın" statusu almaq niyyətində olan (sığınacaq axtaran) şəxs mövcuddur. Onların böyük əksəriyyətini çeçen mənşəli Rusiya vətəndaşları, Əfqanıstan, İran, İraq və Fələstindən olan şəxslər təşkil edir.

Beləliklə, hazırda Azərbaycanda bir milyonadək qaçqın, məcburi köçkün və "qaçqın" statusu almaq niyyətində olan (sığınacaq axtaran) şəxs vardır. Dağlıq Qarabağ və ona bitişik ərazilər də daxil olmaqla, Naxçıvan Muxtar Respublikasının işğal olunmuş 2 kəndindən 1-i, Ağdam rayonunun işğal olunmuş 81 kəndindən 80-i, Füzuli rayonunun işğal olunmuş 76 kəndindən 54-ü, Tərtər rayonunun 13 kəndi və Qazax rayonunun işğal olunmuş 12 kəndindən 6-sı hələ də işğal altındadır.

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası İşçi qrupu tərəfindən 2010-cu il ərzində keçirilmiş axtarış-araşdırma tədbirləri nəticəsində Komissiyada itkin düşmüş şəxs kimi qeydiyyata alınmış şəxslərdən 91 nəfərin taleyinə aydınlıq gətirilmiş, onların adları itkinlərin siyahısından çıxarılmışdır. Həmin şəxslərdən 21 nəfərinin döyüşlərdən və mühasirələrdən sağ çıxdığı, 30 nəfərin döyüşlərdə həlak olduğu, meyitlərinin tanınaraq dəfn edildiyi, 34 nəfərin isə siyahılardan təkrar keçdiyi, 6 nəfərin isə münaqişə bölgəsində kənarda itkin düşdüyü müəyyən edilmişdir.

Beləliklə, 1 yanvar 2011-ci il tarixinə əsir, itkin düşmüş və girov götürülmüş şəxslərin sayı 4049 nəfər təşkil etmişdir. Onlardan 3273 nəfər hərbçi, 771 nəfər mülki şəxslərdir. 5 nəfərin hərbçi və ya mülki olduğu məlum deyil.

Mülki şəxslərdən 47 nəfəri itkin düşərkən yetkinlik yaşına çatmamış uşaq (17 nəfər azyaşlı qız), 247 nəfər qadın, 347 nəfər yaşlı şəxsdir (149 nəfər qadın).

Əsir, itkin düşmüş 4049 nəfərdən 878 nəfərin əsir və girov götürülməsi barədə məlumatlar daxil olmuş, şahid ifadələri alınmışdır.

Əsir və girovluqdan 1399 nəfər azad edilmişdir. Onlardan 343 nəfər qadın, 1056 nəfər kişidir. Eyni zamanda 170 nəfər uşaq (65 nəfər azyaşlı qız), 289 nəfər yaşlı şəxsdir (112 nəfər yaşlı qadın). Dövlət Komissiyasına daxil olmuş materialların təhlili zamanı 553 nəfərin əsir və girovluqda qətlə yetirildiyi və ya müxtəlif səbəblrdən vəfat etdiyi müəyyən edilmişdir. Onlardan 104 nəfər qadın, 448 nəfər kişidir. 137 nəfərin yalnız adı məlumdur, 74 nəfər isə naməlum şəxslərdir.

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında toplanmış faktlar Ermənistan Respublikasının əsirlikdə olan Azərbaycan vətəndaşlarına qarşı münasibətdə beynəlxalq hüquq normalarını tapdaladığını, o cümlədən "Müharibə qurbanlarının müdafiəsinə dair" 1949-cu il tarixli Cenevrə Konvensiyalarının həyata və ya şəxsiyyətə qəsd etmək, hər hansı şəraitdə öldürmək, şikəst etmək, qəddarcasına rəftar etmək və ya işgəncə vermək, insan ləyaqətinə toxunmaq kimi tələbləri kobud surətdə pozduğunu sübut edir. Ermənistanın Azərbaycana hərbi təcavüzü zamanı dinc əhalinin kütləvi şəkildə öldürülməsi, Ermənistan Respublikasında və Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ ərazisində əsirlikdə saxlanılmış Azərbaycan vətəndaşlarının dəhşətli işgəncələr və mənəvi əzablara məruz qalması, amansız rəftar və ləyaqəti mütəmadi alçaltmaqla özünüöldürmə dərəcəsinə çatdırılması, soyuqqanlılıqla qətlə yetirilməsi, yaxud verilmiş işgəncələr nəticəsində vəfat etməsi söylədiklərimizə əyani sübutdur.

Aşağıda bu faktların bir qismi göstərilir:

Erməni silahlı birləşmələri Xocavənd rayonunun işğalı zamanı (17. 02. 1992) Qaradağlı kəndindən girov götürdükləri 117 nəfər kənd sakinindən 80-ə yaxınını yerindəcə güllələmişlər. Bu barədə kənd sakinləri Seyyur Xanlar oğlu Nağıyev, Şahruz Əmirxan oğlu Əliyev və digərləri şahidlik edirlər.

Xocavənd rayonu Qaradağlı kənd sakini Həqiqət Yusif qızı Hüseynova ermənilərin 1992-ci ilin fevralında 10 nəfər həmkəndlisinin diri-diri yandırmalarının şahidi olmuşdur.

1993-cü ilin aprel ayının 1-də Ermənistan silahlı birləşmələrinin Azərbaycanın Kəlbəcər rayonuna genişmiqyaslı hücumu zamanı Ermənistanın Vardenis rayonundakı qərargah radiostansiyasından ("QSM-7") Kəlbəcər döyüş bölgəsindəki baş radiostansiyaya ("Uraqan") bölgədəki bütün səyyar radiostansiyalara çatdırmaq üçün təcili əmr verilmişdir. Əmrdə əsir və girov götürülmüş Azərbaycan vətəndaşlarını, o cümlədən qocaları, qadınları və uşaqları təcili məhv edib basdırmaq tələb olunurdu. Tələsikliyə səbəb azərbaycanlılar barəsində törətdikləri vəhşiliklərin izlərinin həmin vaxt döyüş bölgəsinə gələn beynəlxalq nümayəndə heyətindən, o cümlədən jurnalistlərdən gizlətmək olmuşdur. Erməni hərbi birləşmələri komandirlərinin efirdəki bu radiodanışığının mətni Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyinin radioəkskəşfiyyat xidməti tərəfindən 1993-cü ilin aprel ayının 6-7-də lentə alınmışdır.

Kəlbəcər rayonunun işğalı zamanı Başlıbel kəndinin 15 dinc sakini ermənilər tərəfindən yerindəcə qətlə yetirilmişdir. Bunların arasında Məhəmməd Əmralıyev, Surxay Əmralıyev, Çingiz Əmralıyev, Aygün Əmralıyeva, Büsat Əhmədova və Çiçək Həsənova da olmuşdur. Bu barədə Xasay Məhəmməd oğlu Əmralıyev və Binnət Abduləli oğlu Əhmədov şahidlik edirlər. İmarət Məmişovanın ifadəsinə görə, o Kəlbəcər rayonunun işğalı zamanı iki azyaşlı uşağı ilə girov götürülmüşdür. İmarət Məmişovanın gözləri qarşısında ermənilər səkkiz mülki şəxsi, o cümlədən, onun səkkiz yaşlı oğlu Talehi güllələmiş və meyitləri yandırmışlar. Bundan sonra ermənilər onun özünü, 10 yaşlı oğlu Yadigarı, digər qadın, uşaq və qocaları Xankəndinə apararaq dəhşətli işgəncələrə məruz qoymuşlar.

Erməni girovluğundan 1994-cü ildə azad edilmiş Əhmədovlar ailəsinin şəhadətinə görə, 17 avqust 1993-cü il tarixdə ermənilər Füzuli rayonu Qacar kəndinin 25-dək dinc sakinini onların gözləri qarşısında güllələmişlər.

Erməni girovluğunda olmuş Həsən Məcid oğlu Hüseynov 1993-cü ildə Horadiz-Füzuli yolunda 40-dək dinc əhalinin ermənilər tərəfindən öldürüldüyünü bildirir.

16 fevral 1994-cü ildə Ermənistan Respublikası Xarici İşlər Nazirliyi guya qaçmağa cəhd edərkən atışma zamanı 8 azərbaycanlı hərbi əsirin öldürüldüyünü bəyan etmişdir. Bakıda meyitlər üzərində keçirilən məhkəmə tibbi ekspertizası zamanı Beynəlxalq Hüquq və Sosial Təbabət Akademiyası Rəyasət Heyətinin və Böyük Britaniyanın "Həkimlər insan hüquqları uğrunda" təşkilatının üzvü, professor Derek Paunder azərbaycanlı hərbi əsirlərin eyni silahdan (tapança) gicgah nahiyəsinə yaxın məsafədən açılan atəş nəticəsində qətlə yetirildiyini bildirmiş və əsirlərin guya "qaçmağa cəhd edərkən" öldürülməsi fikrini rədd etmişdir.

Girovluqdan qayıtmış Niyaz Balay oğlu Zeynalov bildirir ki, ermənilər girov götürdükləri, Şuşa rayonu Quşçular kənd sakinləri 1910-cu il təvəllüdlü Səriyyə Tağı qızı Zeynalovanı, 1920-ci il təvəllüdlü Yeganə Dadaş qızı Mədətovanı və Mövsüm Əbdülrəhim oğlu Əhmədovu 11 fevral 1992-ci il tarixdə diri-diri yandıraraq qətlə yetirmişlər.

61 yaşlı keçmiş girov Budaq Əli oğlu Alışanov erməni əsirliyində 5 azərbaycanlının Drmbon kəndində (Dağlıq Qarabağ) ağır fiziki işlərdə qul kimi istifadə edilərək öldürüldüyünün şahidi olmuşdur.

Əsirlikdən azad edilmiş İsrayıl Sarif oğlu İsmayılov təsdiq edir ki, ermənilər girov götürdükləri üç azərbaycanlının başını erməni qəbri üstündə kəsmişlər. Laçın rayonunun sakini Səmayə Kərimova 2 yaşlı qızı Nurlanəyə və özünə işgəncələr verilmişdir.

***Vahid Ömərov f.ü.f.d dos.***

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

Son səhifə

29 avqust

## "Neftçi" UEFA-nın reytinqində 11 pillə irəliləyib



Futbol klublarının yeni UEFA reytinqi açıqlanıb. Belə ki, Azərbaycan klublarının mövqelərində dəyişiklik olub. Ağdamın "Qarabağ" klubu 20,500 xalla 62-ci pilləyə yüksəlib. "Styaua" (Rumıniya), "Milan" (İtaliya) və "Standard" (Belçika) da eyni xalla 62-65-ci pillələri bölüşürlər.

Bu il avrokuboklarda iştirak etməyən "Qəbələ" 4 pillə geriləyərək 182-193-cü pillədə qərarlaşıb. Təmsilçimizin hesabında 5,500 xalı var.

Avropa Liqasında "Şkupi"ni (Şimali Makedoniya) 2:1 hesabı ilə üstələyən "Neftçi" (5,000 xal) 11 pillə irəliləyərək 212-215-ci yerləri bölüşür. "Keşlə", "Sumqayıt", "Səbail", "Zirə" və "Kəpəz" 3,175 xalla 303-307-ci yerlərə şərikdirlər. Qeyd edək ki, klubların siyahısına "Bavariya" (Almaniya) başçılıq edir.

## Kloppdan Messi açıqlaması: "Onu burada görmək istəyərəm"

*"Liverpul"un baş məşqçisi Yurgen Klopp "Barselona"nın kapitanı Lionel Messinin "Mançester Siti"yə mümkün transferi haqda danışıb. Qol.az Britaniya mətbuatına istinadən xəbər verir ki, 53 yaşlı mütəxəssis argentinalı hücumçu ilə bağlı deyib: "Messinin "Mançester Siti"yə transferi onların məğlub etməyimizi çətinləşdirər, amma Premyer Liqa üçün əla olar. Onu burada görmək istəyərəm, ancaq tranferin reallaşıb-reallaşmayacağına əmin deyiləm". Alman çalışdırıcı Messi ilə maraqlanıb-maraqlanmadıqları ilə bağlı sualı isə belə cavablandırıb: "Messi kim komandasında istəməz? Ancaq bizim şansımız yoxdur, söylənilən rəqəmlər bizə uyğun deyil".*



## Yaşıl çayla qara çayın əsl fərqi nədədir?



Sağlamlıq üçün ən vacib şərtlərdən biri də maye qəbuludur, fərqi yoxdur- istər su, istər çay, istərsə də kofe olsun. Çayın müxtəlif növləri var. Ən çox içilən isə qara və yaşıl çaydır.

Bu barədə AZƏRTAC-a məlumat verən Azərbaycan Tibb Universitetinin həkim-diyetoloqu Leyla Zülfüqarlı deyib: "Qara çayın tərkibində kofein və antioksidantlar var və gün ərzində onun 2 stəkandan artıq içilməsi məsləhət görülmür. Günün birinci yarısı qəbul edilməsi daha yaxşıdır. Əgər artıq çəki və mədə-bağırsaq traktında problemlər varsa, qara çaydan az, sudan çox istifadə etməyə çalışmaq lazımdır. Qara çay dəmirin orqanizmə sorulma prosesini ləngidir. Anemiyası olanlar qara çay içməkdən çəkinməlidirlər, onun ət yeməklərindən sonra da qəbul edilməsi məsləhət deyil. Çayın qənd, konfet, mürəbbə və digər şirniyyat növləri sağlamlıq üçün zərərlidir".

Müsahibimiz qara çayın bədəndəki mayeni qovduğunu və buna görə də yarım saat sonra balansı qorumaq üçün mütləq su içilməsinin vacibliyini də qeyd edib. Onun dediyinə görə, qara çaya daha çox üstünlük verilsə də, yaşıl çay onunla müqayisədə orqanizm üçün daha faydalıdır: "Yaşıl çayın tərkibində antioksidant maddələr bədəni təmizləyir, mədə-bağırsaq traktının fəaliyyətini gücləndirir, sorulma prosesini artırır. Gün ərzində 3 fincandan artıq yaşıl çay içmək məsləhət görülmür".

Təzyiqi aşağı olanların yaşıl çay, təzyiqi yuxarı olanların qara çay içməsi məsləhət deyil. Yaşıl çayın daha bir üstünlüyü isə qara çayın tərkibindəki kofein və tamine malik olmamasıdır. Hansı növün içilməsi isə əslində elə də vacib deyil. Əsas odur ki, orqanizmə zərər vurmasın və normada qəbul edilsin. Daha yaxşı olar ki, çobanyastığı, melisa və digər bitki çaylarının qəbuluna üstünlük verilsin.

## Dollar niyə ucuzlaşmağa başlayıb?



*Aktivlərin idarə edilməsi üzrə dünyada ən iri şirkətlərdən biri olan "Pacific Investment Management Co"ya (Pimco) görə, dolların inkişaf edən ölkələrin valyutaları qarşısında zəifləməsi üçün yer olduğundan eniş hələ yeni başlayır. SİA xəbər verir ki, Honq Konqda Pimco-nun portfel meneceri olan Stephen Changa görə, ABŞ dolları mühüm bazar valyutaları qarşısında hələ 2% müsbətdədir.*

Həmçinin dollar 2019 ortalaması ilə müqayisədə daha güclüdür. Əhəmiyyətli bir dönüş nöqtəsinin ABŞ-da yeni təşviq paketinin həyata keçirilməsi olacağını vurğulayan Chang, "Dolların dəyərdən düşməsinin hələ ilk mərhələlərindəyik. İzləniləcək mühüm hadisə ABŞ-da dördüncü mərhələ təşviq paketinin həyata keçirilib keçirilməyəcəyidir" deyib. Chang, təşviq paketinin həyata keçirilməməsi vəziyyətində dolların bahalaşacağını ifadə edib.

Trampın rəhbərlik etdiyi hökumətin pandemiya müddətini idarə etməkdə çətinlik çəkdiyinin düşünülməsi və Fed-in iqtisadiyyatı dəstəkləmək üçün sərhədsiz likvidlik təmin edəcəyi öhdəliyinin təsiri ilə dollar son dövrdə təzyiq altındadır. Bloomberg Dollar İndeksi Mart zirvəsindən bu yana 10% geriləyib. Dünən Fed sədri Jerome Powell-in, faizin illər ərzində aşağı qala biləcəyi barədə şərhinin ardından Yapon Yeni və Dollar düşüb. Riskli aktivlər isə "ralli" edib. (marja.az)

## Cüdo üzrə dünya turunun mərhələlərinin vaxtı açıqlanıb




Budapeşt, Tokio və Dohada cüdo üzrə dünya turunun mərhələləri keçiriləcək. Bu barədə Beynəlxalq Cüdo Federasiyasının (IJF) rəsmi saytında məlumat verilib.

Mərhələ yarışları Budapeştdə bu ilin oktyabrında, Tokioda dekabrda, Dohada isə 2021-ci ilin əvvəlində baş tutacaq. Hər üç yarış "Tokio-2020" Olimpiadasına lisenziya xarakteri daşıyacaq. Xatırladaq ki, "Tokio-2020" Yay Olimpiya Oyunları 2020-ci il iyulun 24-dən avqustun 9-dək keçirilməli idi. Lakin koronavirus pandemiyasına görə, yarışlar bir il müddətinə təxirə salınıb.

## Ölümlə nəticələnən yol qəzası baş verib



Füzuli rayonunda ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Füzuli rayonunun Bala Bəhmənli kəndi ərazisində rayon sakinləri S.Xanalıyevin idarə etdiyi "Daewoo" markalı avtomobillə C.Behbudovun idarə etdiyi "T-40" markalı traktor toqquşub. Nəticədə S.Xanalıyevin sərnişinlərindən Cəsur Şahlarov hadisə yerində ölüb, özü və digər sərnişini xəstəxanaya yerləşdirilib. Hadisə ilə bağlı Füzuli Rayon Polis Şöbəsi tərəfindən araşdırma aparılır.

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600